

Corc Dik: “Bu gün Azərbaycan müsəlman dünyasında yeganə ölkədir ki, çoxsaylı yəhudi icmasına ev sahibliyi edir”

4

Səs

№ 016 (6457) 28 yanvar 2022-ci il. Qiymətı 60 qəpik

# Elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır



2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksinin açılışında iştirak ediblər

# Üçüncü dünya müharibəsi olacaqmı?



13

Yaxud, baş verərsə bəşəriyyəti nə gözləyir?

# “Ağdama gedən avtobusun yola düşdüyünü görəndə ağladım” - TƏƏSSÜRATLAR

6





## “Barselona” üçün 440 milyonluq sponsor!

16

Əhaliyə ŞAD XƏBƏR:

**Pensiyaya çıxma şərtləri YUMŞALDILIR**

5



Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev pensiya sahəsində nəzərdə tutulan islahatlar və bu istiqamətdə...

## Uşaq evləri hansı kriteriyalara sahib olan ailələri seçir?



8



**Zəngilanda və Laçında hava limanları tikiləcək**

6

Hava nəqliyyatı infrastrukturunun qurulması ilə bağlı işlər qrafikə uyğun aparılır. SİA-nın məlumatına görə, bunu...



**Ermənistanda daha bir polkovnik həbs edildi**

5

Qarabağda baş vermiş 44 günlük müharibədə Azərbaycana qarşı döyüşmüş yüksək rütbəli zabitə ittiham irəli...

# Elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Binə qəsəbəsində yeni inşa edilmiş Tədris və Xidmət Kompleksinin açılışında iştirak ediblər

**Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının Xəzər rayonunun Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksinin yanvarın 27-də açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.**

Qeyd edək ki, Binə qəsəbəsinin Atçılıq və Təmənis yaşayış massivlərində indiyədək təhsil ocaqları olmadığından şagirdlər yaxın ərazilərdəki təhsil müəssisələrində oxumaq məcburiyyətində idilər. Sakinlər bu ərazidə məktəb və uşaq bağçasının inşası ilə əlaqədar Heydər Əliyev Fonduna müraciətlər etmişdilər. Müraciətlər araşdırılıb, bu massivlərdə uşaqların və məktəblilərin təhsil ala biləcəyi məktəb və məktəbəqədər müəssisələrin olmadığı müəyyən edilib. Bu səbəbdən 2020-2021-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə Binə qəsəbəsində Tədris və Xidmət Kompleksi inşa olunub.





Kompleksin ərazisində orta məktəb və körpələr evi-uşaq bağçası, stadion və idman sahələri yaradılıb. Ərazi abadlaşdırılaraq müxtəlif növ ağaclar əkilib, həmçinin istirahət parkı salınıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin ərazisində tikilmiş 292 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış oldular.

Bildirildi ki, 1400 şagird yerlik məktəbin dördmərtəbəli binasında sinif, əmək, hərbi və kompüter otaqları, laboratoriya, kitabxanalar, yeməkxana və idman zalı var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib. Məktəbin həyətində günəş, külək və mexaniki elektrik enerjisi qurğularının modelləri quraşdırılıb.

Binə qəsəbəsinin balaca sakinləri də unudulmayıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə kompleksdə 192 yerlik körpələr evi-uşaq bağçası inşa edilib.

Bağça ilə tanış olan dövlətimizin başçısına və birinci xanıma məlumat verildi ki, burada qrup, yataq, oyun və yaradıcılıq otaqları, müəllimlər üçün metodiki otaqlar, idman və akt zalları, yeməkxana və mətbəx yaradılıb. Uşaq bağçası zəruri mebel və avadanlıqlarla təchiz edilib. Həyətyanı ərazidə oyun və idman meydançası da salınıb.



Tədris və Xidmət Kompleksinin ərazisində gündəlik 100 pasiyentə xidmət göstərmək imkanı olan tibb məntəqəsi və 150-yə qədər vətəndaşa xidmət göstərə biləcək poçt məntəqəsi inşa edilib.

Onu da qeyd edək ki, elm və təhsil Heydər Əliyev Fondunun ictimai fəaliyyətinin əsas prioritetləri sırasındadır. Fondun uğurla icra olunan layihələrindən biri "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramıdır. 2005-ci ildən həyata keçirilən layihənin əsas məqsədi təhsil sahəsində mövcud olan problemlərin həllinə kömək etmək, ölkə miqyasında müasir standartlara cavab verən təhsil komplekslərı yaratmaq, tədrisin səviyyəsinə bilavasitə təsir edən problemləri aradan qaldırmaqdır.

Binə qəsəbəsində yeni inşa edilən Tədris və Xidmət Kompleksi kimi layihələrin icrası ilə Heydər Əliyev Fondu Prezident İlham Əliyevin konseptual təhsil strategiyasının həyata keçirilməsinə əsaslı töhfə verir.







# Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları

## *İlham Əliyev: "Son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur"*



**Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. 18 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri İlham Əliyev bu 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada sözü keçən dövlətə çevirdi. Bu güc sayəsində Qarabağın 30 il davam edən işğalına 44 gündə son qoymaq mümkün oldu. Biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasına nəzər salaq. Məhz bu konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.**

Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

### SON 18 İL ƏRZİNDƏ QÜDRƏTLİ İQTİSADİYYATA MALİK AZƏRBAYCAN

Son 18 il ərzində Prezident İlham Əliyev praqmatik və çevik siyasəti, sistemli və ardıcıl yanaşması, inqilabi səciyyə daşıyan islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib.

Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 18 il ərzində misilsiz uğurlara imza atılıb. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin, "Əsrin müqaviləsi" 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib.

Bu gün Azərbaycan həm də dünyada sayı məhdud olan kosmik ölkələr sırasındadır. 2013-cü ildə ilk telekommunikasiya peykimiz "Azerspace-1", 2014-cü ildə Yer səthini müşahidə edən "Azersky" peyki, 2018-ci ildə isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılıb.

Bütün bunlarla yanaşı, son 18 ildə ölkəmizdə ümumi daxili məhsul 3 dəfə artıb, yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, strateji valyuta ehtiyatlarımız 50 milyard ABŞ dollarını ötüb. Qeyri-neft sektorunun, kənd təsərrüfatının, metallurgiya sənayesinin, yüngül sənayenin inkişafı istiqamətində atılan mühüm addımlar da öz müsbət nəticəsini verməkdədir.

İqtisadiyyatın uğurlu inkişafının bariz göstəricilərindən biri də pandemiya şəraitində özünün pik həddinə çatan qlobal maliyyə-iqtisadi böhranın ölkəmizə təsirlərinin minimum həddə olmasıdır. Bunu şərtləndirən əsas amillərdən biri sözügedən inkişafı təmin edən mükəmməl xarakterli bazanın formalaşdırılması, onun bütün əsas sahələri, o cümlədən sosial-iqtisadi dəstək paketini özündə ehtiva etməsidir. Bütün dünyanı bürüyən COVID-19 infeksiyasına qarşı mübarizədə də Azərbaycan Prezidenti liderlik təşəbbüslərini öz üzərinə götürərək adını dünya tarixinə yazdırmağı bacardı. Belə ki, məhz dövlətimizin başçısının təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunan Zirvə görüşləri keçirildi. Türk Şurası bu Zirvə görüşü ilə həm də COVID-19 pandemiyasına həsr olunmuş Sammit keçirən ilk beynəlxalq təşkilat kimi tarixə düşdü. Qoşulmama Hərəkatının Zirvə görüşündə isə dövlətimizin başçısı BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdü. Bu təşəbbüs də beynəlxalq birlik tərəfindən dəstəkləndi.

### PREZİDENT İLHAM ƏLİYEVİN QURDUĞU ORDU 30 İL DAVAM EDƏN İŞĞALA 44 GÜNDƏ SON QOYDU

1994-cü ildə atəşkəs əldə olunduqdan sonra ulu öndər Heydər Əliyevin xüsusi diqqət ayırdığı sahələrdən biri ordu quruculuğu idi. Bu istiqamət Prezident İlham Əliyevin də güclü dövlət konsepsiyasının tərkib hissəsi oldu. Peşəkar hərbi qulluqçuların hazırlanması, ordunun maddi-texniki təminatının gücləndirilməsi istiqamətində bütün lazımi addımlar atıldı.

Həmişə olduğu kimi, yenə də işğalçı Ermənistan 2020-ci ilin sentyabrın 27-də növbəti genişmiqyaslı təxribat törətdi. Ali Baş Komandanın, Azərbaycan Prezidenti İlham Əliyevin "İRƏLİ!" əmrindən sonra Azərbaycan Ordusunun başlatdığı əks-hücum əməliyyatı işğal altındakı torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması ilə nəticələndi. "Dəmir yumruq" əməliyyatı kimi tarixə düşən İkinci Qarabağ müharibəsi xalqımızın 30 illik Vətən həsrətinə son qoydu.

"Bu gün beynəlxalq münasibətlərdə "kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir". Bu fikri öz çıxışlarında, bəyanatlarında dəfələrlə vurğulayan Prezident İlham Əliyev güclü siyasi iradəsi ilə güclü dövlət konsepsiyasını həyata keçirməklə iqtisadi, siyasi və hərbi güc yaratmağa nail oldu. Bu üç gücün vəhdəti Dağlıq Qarabağ münaqişəsini tarixə qovuşdurdu, bölgədə yeni reallıqlar yaratdı. Prezident İlham Əliyev bu gücə arxalanaraq 44 günlük müharibə dövründə həm də informasiya cəbhəsində xalqının, ölkəsinin maraqlarını qətiyyətlə müdafiə etdi. Xarici KİV-lərə çoxsaylı müsahibələrində praqmatik siyasətçi, hadisələri, prosesləri dəqiq qiymətləndirən, öz mövqeyini təkzibolunmaz arqumentlərlə əsaslandırmağı bacaran lider olduğunu nümayiş etdirdi.

Beləliklə, Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.

### BƏRPA VƏ QURUCULUQ LAYİHƏLƏRİ QARABAĞI YÜKSƏK İNKİŞAF ETMİŞ REGİONA ÇEVİRƏCƏK

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək fəaliyyətə başlayan cənab İlham Əliyev hələ 2003-cü ildə verdiyi vədə sadiq qalaraq ötən 18 illik fəaliyyəti ilə hər bir Azərbaycan vətəndaşının layiqli Prezidenti olduğunu sübuta yetirmişdir. Dövlət başçısının gerçəkləşdirdiyi uğurlu diplomatiya son 18 ildə Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapmasını, regional liderliyini təmin etmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi, TAP, TANAP layihələrinin reallaşdırılması, 3 süni peykin orbitə buraxılması Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərini daha da gücləndirmişdir. Ötən illərdə Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi uğurla gerçəkləşmiş, respublikamızın Şərqlə Qərb arasında tranzit-kommunikasiya imkanları genişlənmişdir.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə əsasən, işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsindən sonra Qarabağ regionunun dirçəldilməsi, reinteqrasiyası və inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri olmalıdır. Prezident İlham Əliyevin də dediyi kimi, işğaldan azad olunmuş ərazilərdə düzgün yanaşma, müasir, çevik, effektiv idarəetmə, o cümlədən sosial və texnoloji layihələrin tətbiqi ilə inkişafın Qarabağ modeli qurulacaqdır. Və bu gün artıq işğaldan azad olunmuş torpaqlarımız tikinti meydanına çevrilib. Dövlət başçısının 2021-ci il 4 yanvar tarixli fərmanı ilə "Qarabağ Dirçəliş Fondu"nun təsis edilməsi, habelə fevral fərmanı ilə işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi institutunun yaradılması işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması prosesinin tamamilə yeni meyar və yanaşmalara əsaslanacağından xəbər verir. Son bir ildə Şuşa, Ağdam, Füzuli və Cəbrayıl şəhərlərinin baş planları hazırlanaraq ictimaiyyət nümayəndələrinin iştirakı ilə təsdiq edilib. Hazırda digər şəhərlərin baş planlarının hazırlanması işi sürətlə davam etdirilir. Prezident İlham Əliyevin iştirakı ilə Ağdam, Füzuli və Cəbrayıl rayonlarının ərazilərində yaşayış binalarının təməlinin qoyulması Böyük qayıdışın yaxın illərdə reallaşacağına əminlik yaradır.

Digər tərəfdən, Zəngəzur dəhlizinin təməli qoyuldu. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur, artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub. 2022-ci ilin "Şuşa İli" elan olunması "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 18 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev buna nail oldu.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur.

Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət bir daha onu göstərir ki, 2022-ci il Azərbaycanın yüksəlişində növbəti uğurlu dövr olacaq. Belə ki, gələn ilin dövlət büdcəsi inkişafın dayanıqlı olması üçün güclü maliyyə təminatı yaradır. Büdcə layihəsində gəlir və xərclərin təhlili göstərir ki, növbəti il üçün əsas maliyyə planı xalqımızın rifahının daha da yaxşılaşmasını və ölkəmizin qüdrətinin yüksəlməsini, Qarabağımızın yenidən dirçələcəyini və iqtisadi inkişafın davamlılığını təmin edəcək.

***RƏFİQƏ KAMALQIZI***



## "Şəhid ailələrinə yardımın göstərilməsi Prezidentin daima diqqət mərkəzindədir"

**"Şəhid ailələrinin, müharibə əlillərinin və iştirakçılarının sosial müdafiəsi məsələsi Azərbaycan dövlətinin və dövlət başçısının daim diqqət mərkəzində olub və bu gün də diqqət mərkəzindədir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Əziz Ələkbərli bildirib.**

Onun sözlərinə görə, 2021-ci il yanvarın 7-də cənab Prezident İlham Əliyevin fərmanı ilə ölkədəki şəhər və rayon İcra Hakimiyyətləri strukturunda Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbələrinin yaradılması da bu sahədəki işlərin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və neqativ halların aradan qaldırılması məqsədinə xidmət edir: "Öncə onu xatırladım ki, bu kateqoriyadan olan insanların sosial müdafiəsi bir çox istiqamətlər üzrə həyata keçirilir. Məsələn, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəhid ailələrinə və onlara bərabər tutulan şəxslərin ailələrinə 11 min manat məbləğində sığorta ödənişi həyata keçirilib. Həmin qanuna uyğun olaraq əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara əlilliyin dərəcəsinə görə müvafiq olaraq 8800, 6600 və 4400 manat olmaqla sığorta ödənişi həyata keçirilir. Hətta ağır xəsarət və yüngül xəsarət almağa görə də hərbi qulluqçulara müvafiq sığorta ödənişləri edilir. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən şəhid ailələrinə və müharibə əlillərinə müvafiq Prezident təqaüdü ödənilir. Şəhid ailələrinin və müharibə əlillərinin mənzil və ya fərdi evlə təminatı, təhsil haqqından azad edilməsi, müəyyən vergi güzəştləri, rüsumlardan azad edilməsi, sosial müavinətlər, işlə təminatı, məşğulluğunun təmin edilməsi, reabilitasiya xidməti, sanatoriya-kurort putyovkaları ilə təminatı və s. də şəhid ailələrinin, müharibə əlillərinin sosial rifahının yaxşılaşdırılmasına yönəlik addımlardır. Təkcə belə bir faktı xatırladım ki, indiyədək 12 min şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evlər verilib, 7400 müharibə əlili avtomobillə təmin edilib və bu proses bu gün də davam edir, gələcəkdə də davam edəcək.

Bütün bunlara əlavə olaraq deyim ki, müxtəlif fondlar, qeyri-hökumət qurumları, xeyriyyə təşkilatları da bu kateqoriyadan olan insanlara sosial yardımlarını davam etdirməkdədirlər. Bu sırada həmişə olduğu kimi, Heydər Əliyev Fondu ön sırada durur. Bu da təsadüfi deyil. Fondun Prezidenti, Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva həssas kateqoriyadan olan insanların həmişə ümid və kömək ünvanı olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 8 dekabr 2021-ci il tarixli Fərmanı ilə yaradılmış "YAŞAT" Fondu da qısa vaxtda şəhid ailələrinə və müharibə əlillərinə böyük dəstək nümayiş etdirib. Şübhəsiz ki, sosial yardımların ünvanına çatdırılmasında, veteranlarımızın işlə təmin edilməsində yerli icra orqanlarının da üzərinə böyük məsuliyyət düşür.

Hər kəs bilməlidir və əmin olmalıdır ki, 44 günlük Vətən Müharibəsi ilə xalqımıza şərəfli və möhtəşəm bir Zəfər yaşadan Müzəffər Ali Baş Komandanımız bu Zəfəri səngərdə qazanan şəhidlərimizin ailələrini, qazilərimizi və veteranlarımızı daim diqqət mərkəzində saxlayır və saxlayacaqdır".

***Banuçiçək Hüseynli***

## Corc Dik: "Bu gün Azərbaycan müsəlman dünyasında yeganə ölkədir ki, çoxsaylı yəhudi icmasına ev sahibliyi edir"



Tarix boyu nifrət hissi faciələrə gətirib çıxarıb və ötən əsrdə bunu yəhudilər də yaşayıblar. Dünyada olan ölkələrin hər birinin öz faciəsi var. Holokostun beynəlxalq anım günündə bütün ölkələrin qurbanlarının xatirəsini ehtiramla anırıq. Biz burada, həmçinin faşist rejiminə qarşı mübarizə apararaq həlak olmuş 300 min azərbaycanlının da xatirəsini yad edirik.

AZƏRTAC xəbər verir ki, bu fikirləri İsrailin Azərbaycandakı səfiri Corc Dik Holokost Qurbanlarının Anım Günü ilə əlaqədar "Bəşəriyyəti qorumaq üçün antisemitizm, nifrət nitqi, ksenofobiya və irqçiliklə mübarizə" mövzusunda keçirilən tədbirdən əvvəl jurnalistlərə müsahibəsində deyib.

Səfir diqqətə çatdırıb ki, yəhudilər dininə, irqinə görə təqib olunublar. "Belə hadisələri unutmamaqla biz onların təkrarlanmamasına nail ola bilərik. Kütləvi qırğınlar, soyqırımlar dünyada bu gün də baş verir və biz bunu görməzdən gələ bilmərik. İnanıram ki, biz gələcəkdə elə bir dünyada yaşayacağıq ki, bu cür hadisələr baş verməyəcək".

Bu il Azərbaycan ilə İsrail arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd ediləcəyini bildirən C.Dik bildirib: "Ötən il İsraildə Azərbaycan Ticarət Evi açıldı. Ümid edirəm ki, biz gələcəkdə səfirliyin açılmasını da qeyd edəcəyik. Bu gün Azərbaycan müsəlman dünyasında yeganə ölkədir ki, çoxsaylı yəhudi icmasına ev sahibliyi edir. Bu, Azərbaycanın sahib olduğu və dəstəklədiyi dəyərlərin göstəricisidir".

## "Azərbaycan-İran münasibətləri yüksək templə davam edəcək"

"Bu gün Azərbaycan-İran münasibətləri demək olar ki, normallaşır. Çünki həm müharibədən öncəki, həm müharibə dövründə, həm də müharibədən sonrakı dövrdə İranda bəzi qüvvələr daha çox ermənipərəst mövqelərini nümayiş etdirdilər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.



Onun sözlərinə görə, bunların içərisinə təəssüf ki, hərbi elitaya da daxil olanlar var idi: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin çıxışından sonra birdən-birə İbrahim Rəisi başda olmaqla İranın normal düşüncəli dövlət adamları İranda olan müəyyən qüvvələrin qarşıdurmaya apardığını dərk etdilər və birdən-birə kəskin dönüş etdilər. Təbii ki, qonşu bir dövlət ilə müəyyən problemlər yaşanmasını Azərbaycan da istəmirdi. Unutmaq olmaz ki, uzun müddət ərzində Naxçıvana bütün yollar İrandan keçir. Burada bəzi qüvvələr nə qədər mane olmağa çalışsa da, İran bu addımı atıb və bunu unutmaq olmaz. Çox xoşdur ki, son zamanlar münasibətlər həddən artıq müsbət müstəvidə hərəkət edir.

İranın yol nazirinin Azərbaycana səfəri, Azərbaycan baş nazirinin müavininin, Azərbaycan müdafiə nazirinin İrana səfəri, Astarada körpünün tikilməsi, İran təyyarəsinin ilk dəfə Füzuli hava limanına enməsi diqqətdən qaçan məsələlər deyil. Bundan başqa ən xoş olan məsələlərdən biri də odur ki, Zəngilanda Təbriz Traktor zavodunun filialı inşa ediləcək. Yəni bizim İran ilə olan əvvəlki müsbət münasibətlərimiz yeni məcrada inkişaf edəcək. Bildiyimiz kimi Azərbaycan və İran arasında ortaq su-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Azərbaycan ilə İranın ortaq layihələri çox olacaq. Azərbaycanın İran üzərindən Fars körfəzinə çıxışı təmin olunacaq. O cümlədən İranın Azərbaycan üzərindən Rusiyaya və Avropaya çıxışı məsələsi gündəmdədir. Bir sözlə, birgə görüləcək işlər çoxdur. Həm Azərbaycan tərəfi, həm də İran tərəfi bunu yüksək səviyyədə qəbul edir. Etiraf etmək lazımdır ki, Azərbaycan və İran dövlət başçılarının bu məsələdə rolu böyükdür. Zaman-zaman gərginliklər olsa da, amma düşünürəm ki, artıq bu gərginliklər geridə qaldı. İnanıram ki, Azərbaycan-İran münasibətləri yüksək templə davam edəcək".

***Arzu Qurbanzadə***

## "Azərbaycanda heç bir dövlətin bioloji laboratoriyaları mövcud olmayıb"

"İlkin olaraq onu qeyd etmək lazımdır ki, nə keçmiş SSRİ dövründə, nə də müstəqillik dövründə Azərbaycanda nəinki ABŞ-ın, digər dövlətlərin belə bioloji laboratoriyaları mövcud olmayıb, buna heç bir əsas da yoxdur". Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Amid Əliyev deyib.

Politoloq Amid Əliyev qeyd edib ki, Rusiya telekanallarında belə bir fikrin səsləndirilməsinə gəlincə isə biz mütəmadi olaraq bu tipli Azərbaycana qarşı qara PR-la tez-tez rastlaşırıq: "Bu heç də təsadüfi deyildir. Çünki, Rusiya KİV-nin çoxunun rəhbəri erməni və ya erməni milliyyətçisi və erməni lobbisinin maliyyəsi hesabına fəaliyyət göstərən şəxslərdir. Biz bunun bariz nümunəsini II Qarabağ müharibəsi zamanı gördük. Azərbaycan daim, hər zaman bütün müstəvilərdə öz qonşuları ilə mehriban qonşuluq, ərazi bütövlüyünə hörmət, qarşılıqlı etibarın təmin edilməsi prinsiplərini üstün tutub. Rusiya Azərbaycanın həm qonşusu, həm də strateji tərəfdarıdır. Bu gün bölgədə Rusiya Türkiyə ilə yanaşı sülhün təmin olunmasını təmin edən ölkələrdən biridir. Ağdamda birgə mərkəzdə Türkiyə ilə Rusiya hərbçiləri də bu prosesə birgə nəzarət edirlər. Heç bir zaman Azərbaycan ərazisi Rusiyaya qarşı hər hansı bir müstəvidə platsdarm rolunu oynamayıb. Xarici siyasətdə Rusiyaya qarşı Azərbaycan tərəfindən mənfi münasibət göstərilməyib".

Politoloq vurğulayıb ki, bu gün Azərbaycanda müxtəlif etnik təkiblərlə yanaşı, ruslar da sərbəst və tamhüquqlu Azərbaycan vətəndaşı kimi yaşayır, öz dinlərinə sitayiş edir və hətta Azərbaycan uğrunda döyüşlərdə belə iştirak edərək şəhid olurlar: "Çox məyusedici haldır ki, mütəmadi olaraq Rusiya KİV ara-sıra Azərbaycan haqqında yoxlanılmamış, tarixi və hüquqi faktlara əsaslanmayan məlumatlar yayırlar. Bununla bağlı dəfələrlə Azərbaycan tərəfi öz kəskin münasibətini bildirmişdir. Rusiya tərəfi isə cavabında KİV vasitələrinin müstəqil olmasını və bunun rəsmi Rusiya dövlətinin rəyi və siyasəti



olmadığını bildirmişdir. Bu məsələyə də məhz bu prizmadan yanaşmaq lazımdır. Rəsmi Moskva dəfələrlə Azərbaycanla dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlığın olmasını müxtəlif səviyyələrdə bildirmişdir".

***Rüqəyya Orucova***

# “Şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət, doğrudan da nümunəvi sayıla bilər”

Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq, Zəfər tarixini əbədiləşdirdi. Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. 44 gün davam edən Vətən müharibəsi Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, Şanlı ordumuzun gücü və şücaəti nəticəsində xalqımızın Zəfəri ilə nəticələndi. Müharibənin ilk günlərində Müzəffər Ali Baş Komandanın "Qarabağ Azərbaycandır!" deməsi xalqı qələbəyə daha da ruhlandırdı. Əlbəttə ki, Zəfər qələbəmiz əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən güclü dövlət, güclü iqtisadiyyat, güclü ordu quruculuğu siyasətinin nəticəsi idi. Biz əminliklə deyə bilərik ki, bu möhtəşəm qələbəni Müzəffər Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq.



### “BİR DƏNƏ DƏ ŞƏHİD AİLƏSİ QALMAYACAQ Kİ, DÖVLƏT ONA EV VƏ YA MƏNZİL VERMƏSİN”

Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən genişmiqyaslı sosial dəstək tədbirləri icra olunmağa başladı. Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onlar eyni zamanda, mənzillərlə də təmin olunurlar. "Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin", - deyən Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik. Bu istiqamətdə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 7942 şəxsə 15841 sosial ödəniş - prezidentin təqaüdü, sosial müavinət, pensiya təyin olunub, həmçinin 2515 müharibə iştirakçısına əlillik və sosial ödənişlərin təyinatı həyata keçirilib. Şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği əhəmiyyətli dərəcədə artırılıb. "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur", - deyən Cənab Prezident qeyd edib ki, dünyada bir çox ölkələr müharibə şəraitində olublar:"O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi".

### 12300 ŞƏHİD AİLƏSİ VƏ MÜHARİBƏ ƏLİLİ MƏNZİL VƏ FƏRDİ EVLƏ TƏMİN OLUNUB

Statistik məlumatlara istinadən, şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. 2021-ci il üzrə şəhid ailələri və müharibə əlillərinə 3 min mənzil, müharibə əlillərinə 164 avtomobil verilib. Ümumilikdə, ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə, 7400 müharibə əlili avtomobillə təmin olunub. Şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər daxil olmaqla 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub. "Biz daim onları diqqət mərkəzində saxlayacağıq. Bu kateqoriyadan olan insanları, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra işlə təmin etmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tálimat verilib. Artıq bu prosesə start verilib", - deyə Cənab Prezident bildirib. Qeyd edək ki, 2021-ci ilin iyun ayında başlanan "Məşğulluq marafonu"na 607 işəgötürən qoşularaq 3971 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə artıq 1500-ə yaxın şəhid ailəsi üzvü və müharibə iştirakçısı işlə təmin olunub.

### VƏTƏN MÜHARİBƏSİ QAZİLƏRİ ƏN MÜASİR PROTEZLƏRLƏ TƏMİN EDİLİB

5 min nəfərlə psixokorreksiya işləri aparılıb, reabilitasiya müəssisələrində 1300 nəfərə reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilib. 184 hərbçi yüksək texnologiyalı müasir 4-cü nəsil 193 ədəd protezlə, əksəriyyəti müharibə əlilləri olan 955 nəfər mühərrikli təkərli oturacaqla, 1197 nəfər 12948 reabilitasiya vasitəsi ilə təmin edilib. Dövlət başçısı müharibə zamanı əlini, qolunu, ayağını itirmiş qazilərin ən müasir protezlərlə təmin olunduğunu bildirib: "Bu proses artıq başa çatmaq üzrədir. Onları normal həyata qaytarmaq üçün biz bunu edirik, özü də bu protezlər ən son texnologiyadır. Yəni, Avropanın ən qiymətli, ən bahalı, ən son texnologiyası olan protezlərdir ki, insan normal yaşaya bilər, yeriyə bilər, futbol oynaya bilər. Hətta indi əlini, qolunu itirmiş insan da artıq normal həyata qayıda bilər. Yəni, bu, əsas faktorlardır".

Bütün bunlarla yanaşı, bildiyimiz kimi, Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli Fərmanı ilə vahid əlaqələndirmə mərkəzləri yaradılıb. Bu mərkəzlərdə şəhid ailələrinə, müharibədə yaralanmış hərbi qulluqçulara 6 mərkəzi icra hakimiyyəti orqanı və müvafiq rayon (şəhər) icra hakimiyyəti orqanları tərəfindən 26 istiqamətdə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim edilir. Statistik məlumatlara əsasən, ötən il avqustun 23-dən Bakıdakı DOST mərkəzlərində, noyabrın əvvəlindən Abşerondakı DOST mərkəzində, dekabrın 24-dən isə 19 rayon və şəhəri də əhatə etməklə üç bölgədə işə başlayan regional vahid əlaqələndirmə mərkəzlərində 8500 şəxsə xidmətlər göstərilib. Ümumilikdə, postmüharibə dövründə hazırda da davam edən sosial dəstək tədbirləri bu günədək şəhid ailələri üzvləri, müharibə iştirakçıları və erməni terrorundan zərər çəkənlərdən ibarət 45 min şəxsi əhatə edib, onlara 50 min xidmət göstərilib. Qeyd edək ki, şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır, şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

*Zümrüd BAYRAMOVA*




## “Şuşa ili” Azərbaycan mədəniyyətinin bütün dünyada təbliği vasitəsinə çevriləcək

“Cənab Prezidentimiz İlham Əliyevin 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə bağlı imzaladığı sərəncam böyük tarixi, ictimai-siyasi, mədəni, mənəvi və humanitar əhəmiyyət daşıyır". Bu sözləri SİA-ya açıqlamsında millət vəkili Musa Qasımlı bildirib.

Onun sözlərinə görə, hər şeydən əvvəl bu il çərçivəsində keçiriləcək çox saylı toplantılar təkcə Şuşanın tarixi, mədəniyyəti deyil, eyni zamanda ictimai-siyasi keçmişi, Azərbaycan xalqının tarixində oynadığı rol və digər məsələlərin təbliği baxımından əhəmiyyətli olacaq: "Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşaya həsr edilmiş toplantılara müxtəlif səviyyəli insanların qatılması Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılmasında mühüm vasitələrdən biri olacaq. Şuşaya səfər edən qonaqlar şəhərin tarix, memarlıq irsi ilə tanış olacaqlar. Bu səfər sadəcə Şuşa ilə məhdudlaşmayacaq, gələn qonaqlar bir tərəfdə erməni vandalizminin, barbarlığının şahidi olacaqlar. Digər bir tərəfdən isə o barbarlıq, vandalizm üzərində qələbə qazanmış Azərbaycan mədəniyyətinin qurulucuğuna şahid olacaqlar. Əmin olacaqlar ki, müharibə başa çatdıqdan qısa müddət sonra Azərbaycan işğaldan azad etdiyi ərazilərə yeni ruh, yeni nəfəs, yeni mədəniyyət gətirib. "Şuşa ili" Azərbaycan millətinin, mədəniyyətinin etno-psixologiyasının bütün dünyada təbliği vasitəsinə çevriləcək".

*Səbinə Hüseynli*

## Əhaliyə ŞAD XƏBƏR: Pensiyaya çıxma şərtləri YUMŞALDILIR

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev pensiya sahəsində nəzərdə tutulan islahatlar və bu istiqamətdə aparılacaq dinləmə və müzakirələrə aydınlıq gətirib.



Parlamentin komitə sədri APA-ya açıqlamasında deyib ki, "Əmək pensiyaları haqqında" qanun 2006-cı ildə qəbul ediləndən sonra bu sahədə islahatlar davam edir. M. Quliyev qeyd edib ki, islahatların müəyyən müsbət nəticələri olsa da, bu sahədə müəyyən problemlər, çətinliklər hələ də qalmaqdadır: "Ona görə də Əmək və sosial siyasət komitəsinin yaz sessiyası üçün iş planına bununla bağlı dinləmə daxil etdik. Geniş dinləməni aprel və ya may aylarında keçirməyi planlaşdırırıq. Bu dinləmədə bir çox suallara aydınlıq gətiriləcək".

## Ermənistanda daha bir polkovnik həbs edildi

Qarabağda baş vermiş 44 günlük müharibədə Azərbaycana qarşı döyüşmüş yüksək rütbəli zabitə ittiham irəli sürülüb. SİA erməni mediasına istinadən xəbər verir ki, müharibə vaxtı Qarabağda, Ermənistanın işğalçı silahlı formalaşmalarının tərkibində komandan vəzifəsini daşıyan yüksək rütbəli zabitə qarşı Ermənistan cinayət məcəlləsinin "xidmətə etinasız münasibət" ittihamı irəli sürülüb.



İstintaq müəyyən edib ki, erməni polkovniki Qarabağda baş vermiş döyüşlər zamanı, hərbi vəziyyət şəraitində 2020-ci ilin 10-13 oktyabr tarixində alay komandiri vəzifəsini icra etməkdən boyun qaçırıb. Nəticədə, onun bu imtinası alayın fəaliyyətinin dayandırılmasına səbəb olub. İstintaq erməni KİV-lərinə həbs edilən polkovnikin ad və soyadını açıqlamayıb.

*Rövşən RƏSULOV*

# “Ağdama gedən avtobusun yola düşdüyünü görəndə ağladım” -

## TƏƏSSÜRATLAR

***Rəqəmsal inkişaf və nəqliyyat nazirliyi yanında dövlət avtomobil nəqliyyatı tərəfindən 24 yanvar tarixindən etibarən işğaldan azad edilmiş ərazilərimizə ilkin müntəzəm marşrut xətləri həyata keçirilir. Bu gün səhər 06:30 radələrində Bakı-Ağdam-Bakı istiqamətində reyslər yola düşdü. Səfərdə iştirak etmək istəyənlər biletləri elektron formada ”yolumuzqarabağa.az” saytından əldə edə bilərlər. Bakı-Ağdam-Bakı istiqamətində biletin qiyməti 9.40 təşkil edir. Azərbaycanın işğaldan azad olunmuş ərazilərində sərnişin marşrut avtobuslarının hərəkəti polislər tərəfindən müşayiət olunacaq.***

Biz də SİA olaraq işğaldan azad olunmuş ərazilərə, Ağdama gedən insanların təəssüratlarını öyrənmək üçün Bakı Beynəlxalq Avtovağzal Kompleksinə yola düşdük və onların sevinclərini sizlərlə bölüşmək qərarına gəldik. Gəlin görək, 30 ildən sonra öz yurduna gedən vətəndaşlarımız hansı hissləri keçirir?

**Şəhər sakini Ədibə Hüseynova:** ”Mən 30 ildir ki, öz dədə-baba yurdumdan çıxmışam. Böyük bir həsrətlə, kədərlə həmin yerlərin alınmasını gözləmişəm. Qaçqın kimi yaşamaq çox çətin idi. Allah heç kimə qaçqınçılıq göstərməsin. Torpaqlarımızı işğaldan azad etdiyinə görə başda Prezidentimizə təşəkkürümü bildirirəm. Şəhidlərimizin yeri cənnət, qazilərimizin canı sağ olsun”.














**Şəhər sakini Elmin Bəhlulov:** ”Mən özüm Qubadlıdanam. Heç Qubadlını da görməmişəm birinci dəfədi ki, Ağdama gedirəm. İnşaallah bir gün Qubadlıya da getmək bizə nəsib olar. Belə bir turun təşkil olunması çox gözəl addımdır. Hər kəsə bizim kimi bu səfərdə iştirak etməsini arzulayıram”.



**Şəhər sakini Səltənət İsmayılova:** ”İnanın ki, bu dəqiqə hisslərimi sizə ifadə edə bilmirəm. Həm sevinc, həm kədər demək olar ki, bir-birinə qarışıb. Mən bu günləri görəcəyimə inanmırdım. Amma Allaha şükürlər olsun ki, bizə bu günləri yaşatdı”.




**Şəhər sakini Şamil Həmidov:** ”Torpaqlarımızın alınmasında yaxından iştrak etmişəm, qaziyəm. Çox fəxr edirəm ki, biz bu gün həmin ərazilərimizi gedib görəciyik. Eyni zamanda da çox həyəcanlıyam”.

**Şəhər sakini Həlməxatun Əliyeva:** ”Mən özüm Qarabağlı deyiləm. Amma nə fərqi var ki, hər birimiz azərbaycanlıyıq. Qarabağ bizim tariximizdi. Qarabağ bizim canımızdı. Azərbaycan vətəndaşı olaraq hər birimizin həmin torpaqlara gedib səfər etməsi borcumuzdur. Buna görə də mən Ağdama getməyi özümə borc bildim”.




FOTOREPORTAJ

**Şəhər sakini Zaur Nəsibov:** ”Halhazırda dostumla bərabər Ağdama gedirik. Mənim üçün həmin yerləri görmək çox maraqlıdı. Bilirik ki, rayonda hər şey dağıdılıb və viran qoyulub. Amma onu da bilirəm ki, gün gələcək həmin yerlər yenidən bərpa olunacaq. Ağdam rayonu yenidən canlanacaq”.



**Şəhər sakini Fikrət Yusifov:** ”30 ildir ki, torpağımdan çıxmışam. Çox həyəcanlıyam. Ora çatanda hansı hissləri yaşayacağımı bilmirəm. İlk dəfə torpaqlarımı görəcəm. Bilirəm ki, mənimlə yanaşı ora gedən hər bir kəs ürək ağrısı keçirir”.

**Şəhər sakini Şərəf Abdullayev:** ”Bu günü bizə yaşadan şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Çox sağolsunlar ki, bizə bu sevincli günü yaşatdılar. Öz toraqlarımızı görməyə və evimizi ziyarət etməyə gedirik”.

**Şəhər sakini Elman Abdullayev:** ”Mən özüm Ağdam rayonundanam. Yoldaşımla birgə yenidən öz torpağımıza baş çəkməyə gedirik. Allah hər bir ağdamlıya bu günü yaşatmağı nəsib etsin. Şükürlər olsun ki, mən bu günü yaşadım”.

**Şəhər sakini Məhərrəm Məmmədov:** ”Allah cənab Prezidentimizə can sağlığı versin və şəhidlərimizə rəhmət eləsin. Mən Ağdam rayonunun Əhmədbəyli kəndindənəm. Biz igidlərimizin canı, qanı bahasına bu torpaqları almışıq. Bu bir tarixdi və biz bunu yaşadıq. Mən zənn edirdim ki, mən bu günləri görməyəcəm. Hal-hazırda Ağdama gedən bu avtobusun yola düşdüyünü görəndə ağladım. Sadəcə olaraq qürur hissi keçirdirəm”.



**Dövlət Avtomobil Nəqliyyat xidmətinin rəsmisi Günay Əliyeva** SİA-a verdiyi açıqlamasında bildirib ki, səhər saatlarında yola düşən Bakı-Ağdam-Bakı istiqamətində sərnişin sayı 22 nəfər təşkil edib. Yanvar ayının 25-də Bakı-Ağdam-Bakı istiqamətində gedən reyslərdə 47 yer nəzərdə tutulmuşdu. Onun sözlərinə görə, sərnişinlərin səfərlərə marağı yüksək səviyyədədi. Hətta Bakı-Şuşa-Bakı istiqamətində olan reyslərin bileti fevralın sonuna kimi satılıb.

## Rəsmi iş yeri olmayanlar icbari tibbi sığortadan yararlana bilər?



Bütün ölkə vətəndaşları sığortaolunandır. Vətəndaşlar icbari tibbi sığortanın Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən yararlanmaq üçün Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan istənilən dövlət tibb müəssisəsinə müraciət edə bilər.

SİA-nın məlumatına görə, bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, vətəndaşlara icbari tibbi sığortanın Xidmətlər Zərfinə daxil olan 2550 sayda tibbi xidmət göstərilir: ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, xidməti ixtisaslaşdırılmış ambulator yardım xidməti, laboratoriya xidməti, fizioterapiya xidməti, invaziv radiologiya xidməti, stasionar tibbi xidmət.

”TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində müvafiq xidmətin göstərilməsi mümkün olmadığı təqdirdə birinə göndəriş verilir. Vətəndaş verilən göndəriş vərəqəsi əsasında müqavilələi tibb müəssisəsinə müraciət etdikdə Xidmətlər Zərfi çərçivəsində tibbi xidmətlərdən ödənişsiz yararlanır. Bu halda müvafiq tibbi xidmətin dəyəri müqavilələi tibb müəssisəsinə Agentlik tərəfindən ödənilir. Vətəndaş TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisəsi tərəfindən göndəriş vərəqəsi almadan birbaşa müqavilələi tibb müəssisəsinə müraciət edərsə, tibbi xidmətin dəyərini tam həcmdə öz vəsaiti hesabına ödəməlidir.

Ən vacib məqamlardan biri də təcili və təxirəsalınmaz hallarda vətəndaşa stasionar şəraitdə xidmətin göstərilməsi ilə bağlıdır. Bu zaman vətəndaşa göstərilən xidmət Xidmətlər Zərfinə daxildirsə ödəniş Agentlik tərəfindən icbari tibbi sığorta hesabına həyata keçirilir”, -deyə agentlikdən bildirilib.

## Zəngilanda və Laçında hava limanları tikiləcək



Hava nəqliyyatı infrastrukturunun qurulması ilə bağlı işlər qrafikə uyğun aparılır. SİA-nın məlumatına görə, bunu ”Azərbaycanda rəqəmsal inkişaf və nəqliyyat sahəsi üzrə prioritetlər” seminarında rəqəmsal inkişaf və nəqliyyat nazirinin müşaviri Aida Bədəlova deyib.

”Füzuli hava limanının açılışı 2021-ci il oktyabrın 26-da olub. Zəngilan Beynəlxalq Hava Limanının, eləcə də Laçın Hava Limanının tikinti işlərinə başlanması məqsədilə hazırlıq və mobilizasiya işləri aparılır. Həmçinin, qeyd edilən hava limanlarının vaxtında istismara verilməsinin təmin edilməsi məqsədilə ICAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (IATA) ilə zəruri tədbirlər davam etdirilir”, - A.Bədəlova vurğulayıb.

## Yolların qurulması hansı proqramlarla həyata keçirilir?



“Bakı şəhərinin küçə və yollarının, həmçinin respublikanın avtomobil yollarının yenidən qurulması ”Regionaların sosial-iqtisadi inkişafı” Dövlət Proqramı, investisiya proqramı çərçivəsində həyata keçirilir”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin mətbuat katibi Anar Nəcəfli bildirib. Onun sözlərinə görə, son illər agentliyimiz tərəfindən bu proqramlar nəticəsində həm Bakı şəhəri daxilində, həm də, respublikanın avtomobil yollarında genişmiqyaslı lahiyələr həyata keçirilib.

Eyni zamanda Anar Nəcəfli qeyd edib ki, cari il ərzində kəndlərarası avtomobil yollarının yenidən qurulması və Bakı şəhərinin küçə və yollarının əsaslı təmiri Agentlik tərəfindən icra olunacaq. Növbəti illərdə də, bu cür addımların atılması nəzərdə tutulur.

***Banuçiçək Hüseynli***

# Türkiyə-Azərbaycan diplomatik əlaqələri

## Beynəlxalq aləmdə özünü doğruldan bu diplomatiya dünya siyasətində söz sahibidir

Əsrlərin sınağından keçərək oxşar tarixləri zənginləşən türk birliyinin lokomotivi olan, beynəlxalq aləmdə nümunə göstərilən, Azərbaycan -Türkiyə qardaşlığının rəmzi olan Mustafa Kamal Atatürkün, "Azərbaycan gülərsə biz də güləriz, Azərbaycan üzülərsə biz də üzülərik", ümummilli lider Heydər Əliyevin "Biz bir millət , iki dövlətik" aforizmlərini əks etdirən hər iki dövlət arasındakı tarixi əlaqələr ölkəmizin müstəqillik illərində daha da şaxələnmişdir. Naxçıvan Muxtar Respublika Ali Məclisinin Sədri vəzifəsində işlədiyi müddətdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublika ilə Türkiyəni birləşdirən "Ümid körpü"sünün inşası münasibətləri daha da yaxınlaşdırdı. 2009-cu ildə Naxçıvanda keçirilən Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşü ilə əməkdaşlığın coğrafiyası daha da genişləndirildi. Zirvə Görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması ilə bağlı imzalanan Sazişlə türk dövlətləri arasında münazibətlərin yeni hədəfləri müəyyənləşdirildi. Zirvə Görüşündə " Biz bilirik ki, beynəlxalq müstəvidə öz mövqeyini müdafiə etmək bəzi hallarda o qədər də asan olmur. Biz birlikdə olsaq, müəyyən məsələlərdə vahid mövqedən çıxış etsək və bu birliyi mütəmadi işlərlə möhkəmləndirsək, bizim beynəlxalq mövqelərimiz daha da güclü olacaqdır" söyləyən Prezident İlham Əliyevin sözləri artıq perspektiv deyil, reallıqdır. Bütün görüşlərdə diqqətçəkən məqam türk dövlətlərinin birlik və həmrəyliyinin möhkəmlənməsində böyük rola malik Türkiyə -Azərbaycan qardaşlığı idi. "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində Azərbaycana göstərilən təzyiqlərə baxmayaraq neft-qaz kəmərlərinin Türkiyə ərazisindən keçməsində israrlı olan ulu öndər Heydər Əliyevin neft strategiyasını davam etdirən Prezident İlham Əliyev bu siyasətə sadiqliyini əməli fəaliyyəti ilə təsdiqlədi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin ardıcılları olan Cənub Qaz Dəhlizinin bütün seqmentləri hər iki dövlətin birgə səyi nəticəsində reallaşdı, dünyanın enerji xəritəsi yeniləndi. Türkiyə-Azərbaycan birliyinin ifadəsi olan TANAP-ın istismara verilməsini tarixi nailiyyət adlandıran Prezident İlham Əliyevin "Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur"- sözləri qlobal nəqliyyat layihəsi olan Bakı-Tbilisi- Qars dəmir yolunun inşası üçün stimul yaratdı. "

Təcrübə göstərdi ki, bu il 30 ili tamam olan Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin qardaşlıq səviyyəsinə çatması bütünlükdə türk dünyasının birlik və həmrəyliyini də möhkəmləndirir. Kökləri , mədəni irsi, adət-ənənələri oxşar olan, dostluq, qardaşlıq əlaqələrinin möhkəmlənməsi naminə tarixi xidmətlər göstərən hər iki ölkənin xalqları əsrlərin sınaqlarından çıxmış dostluğu yüksək dəyərləndirir, münasibətlərin dünya siyasətinin hədəflərini əks etdirən çağırışlara uyğun davamında maraqlı olduqlarını nümayiş etdirirlər. Hazırda dünya siyasətində özünəməxsus yeri, nüfuzu olan, siyasi, iqtisadi, hərbi qüdrəti ilə də başqa dövlətlərə nümunə göstərilən bu qardaşlıq türk dünyasının birlik və həmrəyliyinə də önəmli töhfələr verir. Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı torpaqlarımızı 44 gün davam edən İkinci Qarabağ müharibəsində azad edən Azərbaycanın Qələbəsi o ağır günlərdə xalqımıza hər cür dəstək göstərən Türkiyə üçün də Zəfər tarixi idi . İkinci Qarabağ müharibəsində daim Azərbaycanın yanında olduğunu bəyanatları, dəstəyi ilə bildirən Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan kimi qardaş ölkənin dövlət rəsmilərinin xalqımızla həmrəylik nümunəsi olan sözləri möhkəmlənən qardaşlığımızın izaha ehtiyacı olmayan dəyəridir. "Dəmir yumruq" əməliyyatının paytaxtımızda keçirilən Qələbə müjdəli Zəfər paradını Azərbaycan və Türkiyə prezidentlərinin birgə izləməsi türk dünyasının sarsılmazlıq nümunəsi idi. Vətən müharibəsinin davam etdiyi və sonrakı aylarda xarici KİV-lərə müsahibələrində Azərbaycan xalqının Qələbəsindən bəhs edən Prezident İlham Əliyevin Türkiyənin mənəvi dəstəyini yüksək dəyərləndirməsi qardaşlıq münasibətlərinə verdiyi dəyər olmaqla, bu əməkdaşlıqdan narahat olanlara dərs idi.

> “Şuşa Bəyannaməsində nəzərdə tutulan bəndlər müsəlman ölkələrinə yönələn təhdid və təhlükələrin birgə səylə aradan qaldırılmasına yönəldilir”



Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsini imzalamaları, dünya birliyinə ünvanlanan çağırışları, Şuşada Türkiyənin baş konsulluğunun açılması ilə bağlı proqnozların səslənməsi bütünlükdə türk dünyasının möhkəmlənməsinə xidmət edir. Türk dünyasının iki qüdrətli dövləti arasında imzalanan Bəyannamədə nəzərdə tutulan bəndlər müsəlman ölkələrinə yönələn təhdid və təhlükələrin birgə səylə aradan qaldırılmasına yönəldilir.

Müttəfiqlik Bəyannaməsində 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilməsi hər iki dövlətin beynəlxalq müstəvidə təsdiqlənən siyasi, iqtisadi, hərbi, ticari əlaqələrinin təsdiqi, İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni reallıqlara, geosiyasi vəziyyətin sabitləşməsinə eyni mövqedən yanaşmadır. Zəngəzur dəhlizinin açılmasında Türkiyə ilə Azərbaycanın birgə səyindən bəhs edən Prezident İlham Əliyevin "Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır" sözləri Ermənistandan eşidilən revanşist çağırışlarının qarşısının da eyni qətiyyətlə alınacağına inamı artırır. İkinci Qarabağ müharibəsində düşmənə qalib gələn azərbaycanlıların Qələbəsinə öz uğuru kimi sevinən Türkiyə xalqı azadlıq mübarizəsində olduğu kimi, bərpa işlərində də ölkəmizə dəstəyini əsirgəmir. Türkiyə və Azərbaycan şirkətlərinin birgə iştirakı ilə qısa müddətdə inşa olunan Füzuli Beynəlxalq Hava Limanının açılışında prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın birgə iştirakı regional sabitlik üçün nəzərdə tutulan hədəflərin də vaxtında yerinə yetiriləcəyinə inamı artırır.

Bölgəyə sülh, firavanlıq gətirəcək Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İranın daxil olduğu 3+3 platformanın təşəbbüskarları da Türkiyə və Azərbaycandır. Beynəlxalq səviyyədə dəstəklənən, Şərqdən Qərbə uzanan və tərəfdaş ölkələrin istifadə edə biləcəyi ortaq körpü adlandırılan Zəngəzur dəhlizinin bərpası, Türkiyədə keçiriləcək Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası ortaq maraqların təcəssümü, dünya siyasətinin gündəmində olan aktual məsələdir.

İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VIII Zirvə Görüşündə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif olunması dünya diplomatiyasında söz sahibi olan Türkiyə-Azərbaycan həmrəyliyinin uğurudur. 30 illik əməkdaşlıqda xüsusi mahiyyəti ilə seçilən amil türk xalqlarının həmrəyliyinə töhfələr verən Prezident İlham Əliyevin fədakarlığının yüksək dəyərləndirilməsidir.

TDƏŞ-ə sədrlik etdiyi iki ildə əlaqələrin daha da möhkəmlənməsi istiqamətində önəmli təşəbbüslərin reallaşmasında, Türk İnvestisiya Fondunun yaradılmasında, Xəzəryanı dövlətlər olan Azərbaycanın, Qazaxıstanın və Türkmənistanın qlobal məsələlərin həllində eyni mövqedən çıxış etmələrində xüsusi xidmətləri olan Prezident İlham Əliyevin qətiyyəti xalqlar arasında möhkəmlənən həmrəyliyə töhfədir. Zirvə Görüşündəki çıxışında bu etimadı bütünlükdə Azərbaycan xalqına göstərilən hörmət kimi dəyərləndirən Prezident İlham Əliyevin "Mənim sevincimi ikiqat edən odur ki, bu Ali Ordeni mənə Türk Şurasına üzv ölkələrin dövlət başçıları təqdim edirlər. Onların imzası ilə və əziz Qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə bu yüksək mükafat mənə verilir" sözləri ən çətin anlarda Azərbaycanla birlik nümayiş etdirən türkdilli xalqlara minnətdarlıq duyğularıdır.

Artıq Türk Dövlətləri Təşkilatı adlandırılan Şuraya sədrliyin Rəcəb Tayyib Ərdoğana həvalə olunması Türkiyə-Azərbaycan qardaşlığının nümunəsidir. Prezident Rəcəb Tayyib Ərdoğanın Şuşaya, Füzuliyə, Zəngilana səfərləri, Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpasında 12 türk şirkətinin iştirakı, Zəngəzur dəhlizinin təməlinin qoyulması türk dövlətlərinin həmrəyliyini daha da gücləndirəcək.

Müsəlman dövlətlərinin Aşqabadda "Birlikdə gələcəyə!"" devizi ilə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısında da Türkiyə-Azərbaycan həmrəyliyi ilə bağlı xoş sözlər deyildi. Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün qətiyyət göstərən Prezident İlham Əliyevin təkcə türk dünyasında deyil, bütün dünyada qurucu lider" kimi tanınması İslam aləminin ayrılmaz parçası olan Azərbaycan xalqının dostluğa, multikulturizmə , tolerantlığa verdiyi dəyərdir.

***Xuraman İsmayılqızı***

# Uşaq evləri hansı kriteriyalara sahib olan ailələri seçir?

ARAŞDIRMA

**Bu sualı özünüzə verməkdə çətinlik çəkirsiniz? Bəlkə də axmaq olmayın, təbii ki, hər bir valideyn övladını sevir deyirsiniz. Biz cəmiyyət olaraq qadınları əvvəldən ana sözü ilə, kişiləri ata sözü ilə yoğuraraq bəzi qəliblərə salırıq. Ana sevgidir, ata güvəndir, qoruyur. Həqiqətən belə olmalıdır?**

Valideyn sevgisi uşağın inkişafını və rifahını dəstəkləyir. Bu səbəbdən sevgi, şübhəsiz ki, uşağın inkişafının ən təməl kərpicidir. Sevgisizlik düşüncəsi uşağı çox incidir.

Valideynlərin, xüsusən də anaların övladlarına sevgisinin olması cəmiyyət tərəfindən kiçik yaşlarımızdan hamımıza aşılanıb.

Övladlığa götürmə, başqasına məxsus uşağı öz övladı kimi qəbul etmək mə-



nasında nəslindən asılı olmayaraq keçmişdə və indi rast gəlinən sosial-hüquqi hadisədir. Ərəbcə övladlığa götürmək üçün istifadə edilən "Tebenni" "oğul" mənasını verən ibn sözündən olub, "oğul övladlığa götürmək" mənasındadır. Övladlığa götürmə institutunun mövcud olduğu demək olar ki, bütün cəmiyyətlərdə göründüyü kimi, qədim ərəb cəmiyyətində yalnız oğlan uşaqları övladlığa götürüldüyü üçün bu fakt "tebenni" sözü ilə ifadə edilmişdir. Qızların övladlığa götürülməsinə sonrakı dövrlərdə rast gəlinir.

İslam şəriətinin övladlığa götürmə institutunu bəyənməməsinin təbii nəticəsidir ki, övladlığa götürülən uşağın nəsli övladlığa götürənə bağlı deyil, onlar arasında heç bir gizlilik yoxdur, vərəsəlik münasibəti yaranmır. Əslində, Hz. Peyğəmbərin keçmiş övladlığa götürülmüş oğlu Zeyd b. Harisin boşanmış arvadı Zeynəblə evləndi və bununla da övladlığa götürmə institutunun bütün nəticələri ilə qüvvəsini itirdiyini göstərdi.

Övladlığa götürmənin baş tutması üçün qanunda yazılan şərtlər yerinə yetirilməli və məhkəməyə müraciət edilməlidir. Lakin hakimin qərarı ilə uşaqla şəxs və ya həyat yoldaşı arasında hüquqi əlaqə yaranır. Türkiyədə uşağın övladlığa götürülməsi üçün ər-arvad ən azı 1 il uşağa qulluq etməli və ona təhsil verməlidirlər. Övladlığa götürmə uşağın maraqlarına uyğun olmalıdır.

Türkiyədə övladlığa götürməni evli cütlüklər də, qanunda göstərilən şərtlərə cavab verən subay şəxs də edə bilər. Ər-arvad övladlığa götürmək üçün 5 il evli olmalı və 30 yaşını tamamlamalıdırlar. Evli olmayan şəxs 30 yaşına çatmaq şərti ilə uşağı təkbaşına övladlığa götürə bilər.

Uşaqla övladlığa götürən şəxs və ya həyat yoldaşı arasında ən azı 18 yaş fərqi olmalıdır. Bundan əlavə, uşağın ayırd etmək gücü varsa, onun razılığı istənilir. Uşağın razılığı olmadan övladlığa götürmə həyata keçirilə bilməz. Bundan əlavə, övladlığa götürənin valideynlərinin də razılığı alınmalıdır. Bu razılıq məhkəmə qarşısında şifahi və ya yazılı şəkildə verilir və protokolda qeyd olunur. Bu razılığın etibarlı olmasının digər şərti də uşağın doğulmasından ən azı 6 həftə keçməsidir. Uşağın valideynləri razılıq verdikdən sonra 6 həftə ərzində öz razılığını geri götürə bilərlər. Ana və ata uşağa qulluq etmək üzrə öhdəliklərini yerinə yetirmədikdə, övladlığa götürmə prosesində həmin şəxslərin razılığı tələb olunmur.

Evli cütlüklərin bir-birinin uşaqlarını övladlığa götürməsi də mümkündür. Burada ər-arvadın 30 yaşdan yuxarı olması və 2 il evli olması kifayətdir. Bu şərtlər varsa, ər-arvad bir-birinin uşaqlarını övladlığa götürə bilərlər.

Övladlığa götürmə münasibətlərinin yaranması ilə valideynlərin öhdəlikləri övladlığa götürənə keçir. Uşaq indi övladlığa götürənlərin qanuni varisi olur. Övladlığa götürülmüş uşaq 18 yaşına çatmayıbsa, övladlığa götürənlərin soyadını götürür. Əgər uşaq kiçikdirsə, övladlığa götürən uşağa yeni ad verə bilər. Yəni övladlığa götürmə ilə şəxs və ya həyat yoldaşları arasında nəsil bağı qurulur və bütün ünsürlər bu şəkildə reallaşır.

Övladlığa götürmə ilə bağlı məlumat və sənədlər tərəflər tələb etmədikdə, məhkəmə tərəfindən heç bir şəkildə açıqlana bilməz.

Azərbaycanda isə övladlığa uşaq götürmək istəyən valideyn namizədlər notarial qaydada təsdiq olunmuş ərizə ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etməlidirlər. Yəni, həmin ərizə Nazirlikdə yaradılan Alt sistemə inteqrasiya olunacaq.

Övladlığa götürmə prosesində müəyyən mərhələlər var:

İlkin mərhələ qeydiyyatdır, daha sonra müsahibələrin, valideyn namizədlərə təlimlərin keçirilməsi və müəssisələrdə uşaqlarla görüşlər. Artıq müəssisələrdə uşaqla görüş keçiriləndən sonra uşağın valideyn namizədin evində yerləşdirilməsi aparılır. Uşaq 3 ay müddətində sınaq müddəti kimi valideyn namizədin evində qalır. Sınaq müddətində uşaq həmin ailə mühitində yaşayır, onlarla uyğunlaşmasına imkan yaranır. Təbii ki, bu mərhələdə də sosial işçilər onları monitorinq



edirlər. Ailədə uşağın yaşaması, oradakı ab-hava yoxlanılır. Bu proses övladlığa uşaq götürməyin son mərhələsidir. Bundan sonra sənədlər hazırlanıb məhkəməyə göndərilir. Məhkəmə prosesi uzandığı halda uşaq 3 ay müddətinin sonunda müəssisəyə qaytarılmır. Uşağın ailə mühitindən uzaqlaşdırılmaması üçün bu müddət uzadılır və 4 ay həmin valideyn namizədin evində qala bilir. Sınaq müddətinə qədər artıq valideyn namizəd bütün tələblərə cavab verdiyinə görə uşağın həmin evdə qalmasında problem olmur.

SİA məsələ ilə bağlı araşdırma apararaq, ekspert, din xadimi, hüquqşünas və psixoloqların fikirlərini öyrənib.

**Hüquqşünas Fariz Əkbərov: "Övladlığa götürmə üç mərhələdə həyata keçirilir:**

- övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;





- övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;
- övladlığa götürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

Övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 ildən çox olmayan müddətdə aşağıdakı qaydada müəyyən edilir:
- övladlığa götürmək istəyən şəxslərlə müsahibə aparılması;
- övladlığa götürmək istəyən şəxslərin təlimlərə cəlb edilməsi;
- övladlığa götürmək istəyən şəxsə uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi;
- övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili;
- övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxslərin evində yerləşdirilməsi.

Müvafiq icra hakimiyyəti orqanı övladlığa götürmənin məqsədləri, övladlığa götürmək istəyən şəxsin həyat şəraiti, ailə tərkibi, ailə üzvlərinin övladlığa götürməyə münasibətini öyrənmək məqsədilə elektron informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş övladlığa götürmək istəyən şəxslərlə müsahibə keçirir.



Müsahibədən keçmiş övladlığa götürmək istəyən şəxs öz ölkələrində övladlığa götürmə ilə bağlı təlim keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla, müvafiq icra hakimiyyəti orqanı tərəfindən övladlığa götürmə ilə bağlı 30 gündən çox olmayan müddətdə təlimlərə cəlb edilir. Öz ölkəsində övladlığa götürmə ilə bağlı təlim keçməsi barədə təsdiqedici sənəd təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təlimlərə cəlb edilmirlər.

Təlimin nəticələri müsbət qiymətləndirildikdə, müvafiq icra hakimiyyəti orqanı, övladlığa götürmək istəyən şəxsin və valideyn himayəsindən məhrum olmuş uşağın istək və mənafeyini nəzərə almaqla, övladlığa götürülən uşağa uyğun valideyn və övladlığa götürmək istəyən şəxsə uyğun uşaq seçir və uşağın yerləşdiyi müəssisədə sosial işçinin iştirakı ilə onların görüşünü təşkil edir.

Uşaq Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan övladlığa götürmək istəyən şəxsin (şəxslərin), o cümlədən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ailəsində sınaq müddətində həmin şəxslərin Azərbaycan Respublikasında mülkiyyətində yaşayış sahəsi olduğu hallarda həmin yaşayış sahəsində, əks halda Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğun olaraq olduqları yer üzrə qeydiyyata alındıqdan sonra həmin yerlərdə yerləşdirilir.

Sosial işçi uşağın övladlığa götürmək istəyən şəxsin (şəxslərin) ailəsində sınaq müddətində yerləşdirilməsinin monitorinqini aparır. Monitorinqin nəticəsi mənfi olduqda uşaq sosial xidmət müəssisəsinə qaytarılır və müvafiq icra hakimiyyəti orqanı tərəfindən bu Ailə Məcəllənin 118.4-cü maddəsində nəzərdə tutulmuş qaydaya uyğun olaraq reabilitasiya tədbirləri görülür".

**Din xadimi Mircəfər Əyyubov:** "Uşaq evlərinin kimsəsiz uşaqları ailələrə verməsi özü-özlüyündə yaxşı işdir. Sadəcə olaraq bunun bir dini baxımdan dəyərləndirilməsi lazımdır. Dini baxımdan dəyərləndirilməsi budur ki, məhrəmliyə, naməhrəmliyə riayət olunmalıdır. Məsələn, oğlan uşağını bir ailə götürürsə o qadın bilməlidir ki, bu oğlan uşağı mən onu böyütsəm də mənə məhrəm deyil. Yəni, mənim onun yanında başı açıq qalmağım, ona toxunmağım, ona öz oğlum kimi baxmağım doğru deyil. Qız uşağıdırsa ata bilməlidir ki, bu mənim qızım deyil, qızlığımdır. Yəni, mən onu öpüm, qucaqlayım, bağrıma basım bu kimi işlər olmamalıdır. İslam şəriətinə, İslam qaydalarına ziddir və insan fitrətinə də bunlar ziddir. Digər məsələlər həm psixoloji, həm dini baxımdan dəyərləndirilməlidir. O da bundan ibarətdir ki, ümumiyyətlə ailə həm maddi, həm psixoloji durum baxımından dəyərləndirilməlidir ki, bu ailə kimdir, neçidir, bu ailəni qonşuları



necə tanıyır, ətrafda necə tanınırlar. Bir ailə yaxşı pulludur deyə ona övlad vermək bu düzgün kriteriya deyil. Çünki o ailə o övladı pis yollara da çəkə bilər, bəlkə də elə uşaq evində qalsaydı daha çox xoşbəxt olardı. Ümumiyyətlə yaxşı olardı ki, müəyyən qurumlar təyin olunsun, onlara nəzarət olunsun. Çünki kimsəsiz uşaqların durumu ataanası olan uşaqların durumundan çox fərqlənir. Ata-anası olan uşaqlara biz məsələn 50 faiz qayğı göstərməliyiksə, kimsəsiz uşaqlara daha çox qayğı göstərməliyik. Çünki onların xüsusi məhəbbət qıtlığı var, sevgi qıtlığı var".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Uşaq evlərindən uşaq himayəyə götürmək çox



çox ciddi bir məsələdir. Bu çox uzun müddətli bir prosesdir. Birincisi uşağın veriləcəyi ailənin maddi durumu nəzərə alınmalıdır. Ailə üzvlərinin psixoloji durumlarına ayrı-ayrılıqda diqqət edilməlidir. Həmçinin, ailənin asılı və ya müstəqil olduğuna da xüsusi fikir verilməlidir.

Onu da qeyd edim ki, ailələrin əksəriyyəti kiçik yaşlı uşaqları övladlığa götürməyə üstünlük verir. Nəticədə də orta yaşlı uşaqlar kənarda qalır. Ailə psixoloqun testindən keçdikdən sonra uşaq ailədə qala bilər. Heç bir məqsədi olmadan sadəcə uşaq sahibi olmaq istəyən ailələri həm psixoloqlar, həm də həkimlər seçirlər. Onların psixi durumları, maddi durumları, iş qabiliyyətləri nəzərə alınır. Yalnız müəyyən etaplardan sonra uşağı həmin ailəyə vermək olar".

***Ayşən Vəli***

---

## "Bundan sonra təxribatların baş verməsi Ermənistan dövlətçiliyinin sonunu gətirməsi deməkdir"

"Erməni təxribatlarına son qoymaq üçün, ilk növbədə, sülh sazişi ilə bağlı aparılan işləri sürətləndirməyə ehtiyac var". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib. İlyas Hüseynov bildirib ki, ötən il 16 noyabr tarixində Ermənistan və Azərbaycan silahlı qüvvələri arasında baş vermiş eskalasiya da göstərdi ki, sülh çox kövrəkdir, Ermənistan üçtərəfli bəyanatın tələblərinə riayət etmir və hər zaman gərginlik yaşana bilər: "Bu baxımdan, uzunmüddətli və dayanaqlı sülhün əldə olunması üçün yekdil sülh müqaviləsinə ehtiyac var. İlk növbədə, Ermənistan Azərbaycanı beynəlxalq səviyyədə tanınmış sərhədlərini qəbul etməli və yeni geosiyasi reallıqları dərindən həzm etməlidir. Azərbaycana qarşı əsassız iddialarına son qoymalıdır. Azərbaycan ərazisində kompakt yaşayan erməni cəmiyyətinə inteqrasiya mərhələsinə başlamalıdır. Eyni zamanda, Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan və Naxçıvan avtomobil və dəmir yolunda gediş-gəliş bərpa edilməlidir. Kommunikasiya xətləri açılmalı və iqtisadi əlaqələr yenidən canlanmalıdır. Bu, Azərbaycanın irəli sürdüyü şərtlərdir. Təəssüflər olsun ki, Ermənistan da hər hansı qeyd-şərtlər irəli sürür. Bu yanaşmalar qəbul edilməzdir. Bir sıra razılaşmalar əldə olunub. Dəmir yolu vasitəsilə əlaqənin marşrutu təsdiqlənmişdir. Hər iki tərəf bununla razılaşır. Hətta Azərbaycan tərəfində işlərin sürətlə getdiyini müşahidə edirik. Naxcıvanda da bu istiqamətdə də işlər görülür. Yekunda 40 kilometrlik Zəngəzur dəhlizi boyunca dəmiryolu əlaqəsinin tam şəkildə istifadəyə verilməsi və dəmir yolu daşımaları həyata keçiriləcək. Bölgədə iqtisadi rifahın ələ olunması istiqamətində çox önəmli addımdır. Gələcəkdə dəhliz boyunca qaz xətti və elektrik nəqli həyata keçirilə bilər. Bu-



rada bölgənin potensial imkanlarından xəbər verir. Lakin, təxribatlara son verilməsi üçün Ermənistan ilk öncə iqtisadi divitetlər barədə düşünməlidir. Ermənlərin əssasız iddialar irəli sürmək revanşist düşüncədə yaşamaq və intiqamçılıq hissində gələcək nəsilləri böyütmək Ermənistana heç bir xeyir verməyəcəkdir. Ermənistanın daxilində də artıq proqmatik insanlar və rosional düşünən şəxslər vardır və bilirlər ki, 30 illik işğal erməni xalqına heç bir fayda gətirməyib. Ermənistan müstəqil şəkildə düşünməli, güc mərkəzlərin əlaltısına çevrilməməli və öz gələcəyi haqqında qərar verməlidir. Bu qərar isə qonşularla mehriban münasibətdən keçir. Mehriban qonşuluq siyasətinin bərpa olunmasından keçir. Belə olacağı təqdirdə Ermənistan özü də tənəzzüldən çıxa bilər. Bu haqda Ermənistanın siyasi rəhbərliyi düşünməlidir. Ermənistanda 44 günlük vətən müharibəsindən sonra ciddi şəkildə iqtisadi böhran yaşanır. Son illərdə Ermənistanın tərk edən şəxslərin sayı artmaqdadır. Statistikaya nəzər salsaq görərik ki, Rusiya vətəndaşlığını qəbul edən erməni əsilli şəxslər sayı 2020-ci ilin payızından sonra sürətlə çoxalıb. Buna görə də erməni siyasi rəhbərliyi diqqətlə baş verən prosesləri nəzərdən keçirtməli və düşünülmüş şəkildə addımlar atmalıdır. Erməni təxribatları İkinci Qarabağ müharibəsinə gətirib çıxardı. Ermənistanda siyasi idarəçilik böhranı da pik həddədir. Ermənistanın prezidenti isə öz səlahiyyətlərinin məhdudluğu uçbatından siyasətə təsir edə bilmədiyindən istefa edib. Bütün bunlar dərin siyasi böhranın göstəricisidir. Bu vəziyyətə Ermənistanın hazırkı siyasi rəhbərliyi gətirib çıxarıb. Bundan sonra təxribatların baş verməsi Ermənistanın dövlətçiliyinin sonunu gətirməsi deməkdir".

***Qönçə Quliyeva***

## ""Human Rights Watch"-ın qərəzli təşkilat olmasına dair sübutlar var"

"Birləşmiş Millətlər Təşkilatı tərəfindən qurulan 10 insan hüquqları təsisatından biri olan, beynəlxalq qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən "Human Rights Watch"- əsas vəzifəsi dünya səviyyəsində insan haqlarını müdafiə etmək və bu mövzuda araşdırmalar aparıb, yayımlamaqdan ibarətdir. Çox təəssüf ki, bu təşkilat növbəti dəfə öz təyinatına uyğun davranmayıb və özünün 2021-ci il üçün yayımlanan hesabatında da ədalət və qərəzsizlik prinsiplərini gözləmədən siyasi sifarişlərə xidmət edən məlumatlar dərc edib". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, hesabatın təhlili onu göstərir ki, "Human Rights Watch" hər zaman olduğu kimi, bu dəfə də Azərbaycana münasibətdə ikili standartlara yol verir, insan hüquqlarının müdafiəsi sahəsində Azərbaycanı neqativ, Ermənistanı isə pozitiv göstərməyə çalışır: "Məlum olduğu kimi, Ermənistanın Azərbaycana qarşı törətdiyi son müharibə cinayətləri nəticəsində 10-dan çoxu uşaq olmaqla, 100-ə yaxın dinc mülki şəxs qətlə yetirilib, 450-dən çox insan yaralanıb, 12 min mülki infrastruktur obyekti, o cümlədən 3410-dan çox ev, 120 çoxmənzilli yaşayış binası və çoxlu sayda məktəb, xəstəxana, uşaq bağçası da olmaqla 512 mülki infrastruktur, habelə tarixi, dini və mədəni abidələrimiz dağıdılıb və ya onlara ciddi ziyan vurulub. Qeyd olunan məlumatlar faktlarla təsdiq edilərək Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili tərəfindən hazırlanmış çox sayda hesabat, bəyanat və müraciətlərdə geniş şəkildə əks olunub, beynəlxalq və regional təşkilatlara, o cümlədən beynəlxalq qeyri-hökumət təşkilatlarına göndərilib".

A.Səmədov onu da bildirdi ki, hesabatda Ermənistan ombudsmanının məlumatına istinad olunsa da, Azərbaycan ombudsmanının mövzu ilə bağlı hazırlamış olduğu hesabat və bəyanatlarına istinad edilməyib: "Bu fakt bir daha "Human Rights Watch" təşkilatının məsələyə qərəzli yanaşmasını sübut edir. Hesabatda, eyni zamanda, Ermənistan ombudsmanının məlumatına istinad edilərək, guya Azərbaycanda erməni hərbi əsirlərinə münasibətdə hüquq pozuntularına yol verildiyi iddia olunur. Bu iddialarda yeni heç nə yoxdur və qətiyyən bizi təəccübləndirməməlidir. Məlumdur ki, ABŞ prezidentinin ötən ilin son günlərində imzaladığı "Milli müdafiə haqqında" qanunda da eyni iddialar yer almışdı. ABŞ qanununda iddia olunurdu ki, Ermənistanın 10 noyabr Bəyanatına əməl edərək bütün əsirləri qaytarmasına baxmayaraq, biz erməni əsirlərinə qeyri-insani münasibət göstərmişik, qadın əsirləri cinsi istismara məruz qoymuşuq, onların bəzilərinin başını kəsmişik, meyitlərini təhqir etmişik, insanlıq əleyhinə hər cür cinayətlər törətmişik, üstəlik, 200-ə yaxın əsiri hələ də vermək istəmirik. "Human Rights Watch" təşkilatının növbəti hesabatı bir daha göstərdi ki, qərb institutlarının "ikili standartlar" siyasəti davam edir və biz də bu reallıqla barışmalı, mübarizəmizi bir an belə zəifləmədən davam etdirməliyik".

***Gülyana***

# Azərbaycan
## dünyanın elit turizm mərkəzidir



Dünya təcrübəsi göstərir ki, turizm sənayesinin səviyyəsi, istirahətin təşkili üçün mövcud şəraitin olması turistlərin seçimində əsas amillərdəndir. Əlbəttə ki, ölkəmizdə bu sahənin inkişafı üçün görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni və s. olması turistlərin öz istirahətlərinin təşkilində mühüm rol oynayır. Ölkəmizdə turizmin mövsümiliyinin aradan qaldırılması, il boyu turizm imkanlarının və xidmətlərinin təqdim olunması, eləcə də qeyd etdiyimiz bu və digər amillər müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricilərdəndir. Azərbaycan iqtisadiyyatının strateji istiqaməti sayılan turizm sektorunda aparılan islahatlar davamlı xarakter aldı. Ölkəmizdə turizmin inkişafı üçün lazım olan bütün infrastruktur yaradılıb. Azərbaycanda dünyanın bütün aparıcı otellərinin brendləri fəaliyyətdədir. Ənənəni, yenilikləri, müasir dəbdəbə və qədimlik çalarlarını özündə birləşdirən otellər dünya standartlarına uyğun qurulub. "Excelsior Hotel Baku", "Kempinski Hotel-Badamdar", "Hilton Baku", "JW Marriott Absheron", "Four Seasons Hotel Baku" və başqaları Azərbaycanın böyük turizm potensialına malik olduğunu təsdiqləməklə yanaşı, respublikamızın dünyanın elit turizm mərkəzlərindən birinə çevrilməsində əhəmiyyətli rol oynadı.

Turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır.



### BEYNƏLXALQ TURİZM BAZARINA İNTEQRASİYANIN TƏMİN OLUNMASININ ƏSASI QOYULDU

Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u da ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri - Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, yerli Maçi-Piçku və ya Qubanın Xınalıq kəndi, Talış dağları və s. turistlərdə böyük maraq doğuracaq məkanlardır. Bu gün Azərbaycanda turizmin inkişafı respublikamıza xarici vətəndaşların cəlb edilməsi ilə yanaşı, həm də bölgələrdə əmək məşğulluğunun artması, yeni iş yerlərinin açılması baxımından da sərfəlidir. Bu isə dövlət siyasətinin prioritet məsələlərindən biridir. Azərbaycan-zərdüştlüyün yaşayan mədəni mərkəzi, müasir və qədim arxitekturanın vəhdəti, xarakterik Xəzər dənizi, keçmiş və gələcəyi özündə birləşdirən ölkə kimi hər kəsdə maraq doğurur. Buna əminlik dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn qonaqların ifadə etdiyi fikirlərində də yaranıb. Azərbaycanın səfalı guşələrində, Qəbələdə, Qusarda, Naftalanda və neçə-neçə belə yerlərdə son dövrlər aparılan abadlıq-quruculuq işləri, həyata keçirilən sosial-iqtisadi layihələr bu əraziləri daha da füsunkar etməklə yanaşı, insanların güzəranlarını da xeyli yaxşılaşdırıb. Turizm məkanlarında turizm obyektlərinin sayı xeyli artıb. Eyni zamanda, turizm-istirahət mərkəzləri dağ, çay, meşə zolaqları ilə əhatə olunur. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri və s. hər bir turistin maraq dairəsindədir. Əlbəttə ki, bu və digər amilləri sadalayarkən, adət-ənənələrimizi, milli mətbəximizi də qeyd etməliyik ki, məzuniyyətini Azərbaycanda keçirmək istəyində olanlar əminliklə vurğulayaq ki, movcud olanların hamısından yüksək zövq alacaqlar.

Onu da qeyd etməliyik ki, turizmin inkişafına dair dövlət proqramları da ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişafını təmin etmiş oldu. Ölkəmizdə turizmin inkişafına münbit şərait yaradıldı, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyuldu. Əlbəttə ki, ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyindən Azərbaycan turistlər üçün cəlbedici məkan olaraq diqqətdədir.

### AZƏRBAYCANA 167 ÖLKƏDƏN 791,8 MİN TURİST GƏLİB

Son dövrdə "SOVİD-19" pandemiyası dünya ölkələrində olduğu kimi, Azərbaycanda da turizmin inkişafına təsirsiz ötüşmədi. Xatırladaq ki, 2019-cu ildə ölkəmizə 3 milyon 170 min turist gəlmişdi. Bir il ərizində xarici turistlər Azərbaycanda 4,3 milyard manat pul xərcləmişdilər ki, bu da böyük bir göstəricidir. Növbəti illərdə daha çox sayda turistin gələcəyi gözlənilirdisə, pandemiyanın dünyanı ağuşuna alması nəticəsində ilkin mərhələlərdə sərhədlər bağlanıldı və turistlərin səyahətinə qadağalar qoyuldu. Sonrakı mərhələlərdə müəyyən qadağaların aradan qaldırılması və yumşalmalar turistlərin bir çox ölkələrə, eləcə də Azərbaycana səfərinə imkan verdi. Statistik rəqəmlərə diqqət etsək görərik ki, yola saldığımız 2021-ci ildə Azərbaycana 167 ölkədən 791,8 min turist gəlib. Turistlərin 12,3 faizi dekabr ayında ölkəmizə gəlib. Ən az turist sayı isə yanvar və fevral aylarında müşahidə edilib. Turistlərin 32,6 faizi Rusiyanın payına düşüb. Türkiyədən gələnlər 25, iranlı turistlər isə 15,8 faiz təşkil edib. 2021-ci ildə Gürcüstandan Azərbaycana gələnlərin sayı kəskin azalma müşahidə olunub. Bu 7,9 faiz təşkil edir. Bu və ya digər statistik rəqəmlərdən aydın görünür ki, pandemiya ilə əlaqədar olaraq ölkəmizə gələn turistlərin sayında azalma diqqəti çəkir.

### AZƏRBAYCANIN TURİZM MƏKANLARININ COĞRAFİYASI DAHA DA GENİŞLƏNİR

Əlbəttə ki, pandemiya başa çatdıqdan sonra dünya ölkələrindən Azərbaycana turist axını daha güclənəcəkdir. Coğrafi mövqeyinə görə əlverişli bir ərazidə yerləşən Azərbaycanda turizm ən perspektivli və yüksək potensiallı sahə hesab edilir və dövlətin turizmə diqqəti və qayğısı bu sahənin gələcəkdə daha da inkişafına zəmin yaradıb.

İşğaldan azad olunan ərazilərimiz də tezliklə Cənubi Qafqazın ən gözəl turizm məkanı olaraq diqqəti cəlb edəcək. Ölkə rəhbərinin tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası hazırlanıb. Sözügedən sənədə görə, turizm məhsullarının hazırlanması həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılacaq. Əlbəttə, turistlərin təhlükəsizliyinin təmin olunması başlıca vəzifədir. Əhalinin geri qayıdışı, yaşayışın və infrastrukturun bərpası ilə paralel olaraq orada turizm məhsulları da yaradılacaq. Heç şübhəsiz ki, Azərbaycanın turizm məkanlarının coğrafiyası yaxın zamanlarda daha da genişlənəcək.

***Zümrüd BAYRAMOVA***




# Böyük Qayıdış

## dayanıqlı məskunlaşmasını reallaşdıracaq

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsi nəticəsində 30 ilə yaxın müddətdə erməni işğalı altında olan torpaqlarımız azad olundu və çox keçmədi ki, həmin məkanlarda yeni bir dövrün başlanmasına start verildi. Ermənistanın 30 il ərzində işğal altında saxladığı Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan kimi rayonlarında bütün infrastruktur, o cümlədən elektrik stansiyaları, yarımstansiyaları, ötürücü xətləri dağıdılaraq yerlə yeksan edilib. Bu ərazilərdə enerji sistemindən əsər-əlamət belə qalmayıb. Laçın, Kəlbəcər, Şuşa və digər işğaldan azad edilmiş ərazilərdə isə erməni qəsbkarları bütün enerji infrastrukturunu sıradan çıxarıblar. Genişmiqyaslı quruculuq işlərinin təməli qoyuldu və erməni işğalçıları tərəfindən darmadağın edilmiş, viran qoyulmuş ərazilərdə abadlıq-quruculuq işlərinə başlanıldı.

Eyni zamanda, bu ərazilərdə turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika istiqamətində işlər həyata keçirilir. Əlbəttə ki, qısa bir zaman məsafəsində kompleks işlərin görülməsi Azərbaycanın iqtisadi gücünə, dinamik inkişafına əsaslanır. Aparılan məqsədyönlü işlər bu ərazilərin tezliklə müasir məkana çevriləcəyindən xəbər verir.

Bu gün Füzuli, Şuşa, Zəngilan kimi işğaldan azad olunan ərazilərdə aparılan abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Beynəlxalq hava limanlarının tikintisi, yeni yolların çəkilməsi, Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi və s. bu ərazilərin müasir şəhərə çevriləcəyindən xəbər verir. Eləcə də, tarixi memarlıq abidələrimizin bərpa və təmir olunması istiqamətində işlər uğurla davam etdirilir. Artıq Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib və ilk təyyarələri qəbul edib. Bir neçə şəhərin Baş planı təsdiq edilib və işlərə start verilib. Görülən işlərin davamı olaraq, Kəlbəcərə dəmir yolu xətti üzrə konseptual layihələr hazırlanıb, hazırda texniki-iqtisadi əsaslandırma işləri aparılır.

Azərbaycan Prezidenti İlham Əliyevin "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamları geniş quruculuq işlərinə dəlalət edir.

### DOST ÖLKƏLƏR YENİDƏNQURMA İŞLƏRİNƏ TÖHFƏ VERİR

Bu gün Azərbaycana dost olan ölkələr işğaldan azad olunan ərazilərin bərpasında iştirak edirlər. Əlbəttə ki, işğaldan azad olunan ərazilərdə Azərbaycana dost olan ölkələr yenidənqurma işlərinə töhfə verəcəklər. Bir sıra dost ölkələr - Türkiyə, Pakistan, İtaliya, Çin, İsrail, Belarus kimi dövlətlər ərazilərimizin bərpası prosesində iştirak etmək arzularını bildiriblər. İşğaldan azad olunan bölgələrdə aparılan infrastruktur layihələrin həyata keçirilməsində italyan şirkətləri fəallıq göstərirlər. İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir: "İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirakçıdırlar.

Qeyd edək ki, keçən Ukrayna Ticarət və Sənaye Palatası ilə Azərbaycan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) arasında dövlət-özəl sektor tərəfdaşlığının inkişafı üçün əsas platforma kimi Ukrayna-Azərbaycan Biznes Şurasının yaradılması haqqında Saziş imzalanıb. Sənədə əsasən, İşgüzar Şuranın vəzifələrindən biri Ukrayna şirkətlərini Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası üzrə layihələrə cəlb etməkdir. Ukrayna şirkətləri kənd təsərrüfatı, körpü tikintisi, infrastruktur, energetika və meliorasiya sahəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası üzrə birgə layihələrə ciddi maraq göstərirlər. "Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik", - deyən Cənab Prezident dünyada belə ölkələrin çox olduğunun bildirib: "Lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər".

Böyük Qayıdış əlbəttə ki, keçmiş köçkünlərin işğaldan azad edilən ərazilərdə dayanıqlı məskunlaşmasını və həmin ərazilərin ölkənin iqtisadi sisteminə inteqrasiyasını reallaşdıracaq. Bu gün bərpa prosesində Türkiyə şirkətlərinin fəaliyyəti daha çox diqqət çəkir. 44 günlük Vətən müharibəsində olduğu kimi, abadlıq-quruculuq işlərində də qardaş ölkə yaxından iştirak edir.

Qarşılıqlı maraq və səylər nəticəsində, həmçinin mövcud olan potensiala uyğun şəkildə əlaqələrin qarşıdakı dövrdə daha geniş miqyas alacağı proqnozlaşdırılır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "İşğaldan azad olunmuş ərazilərə gedənlərin sayı durmadan artır"




**"Rəqəmsal inkişaf və nəqliyyat nazirliyi yanında dövlət avtomobil nəqliyyatı tərəfindən 24 yanvar tarixindən etibarən işğaldan azad edilmiş ərazilərimizə ilkin müntəzəm marşurut xətləri həyata keçirilir. Qeyd etmək istərdim ki, Bakı-Şuşa-Bakı, Bakı-Ağdam-Bakı, Əhmədbəyli-Şuşa-Əhmədbəyli, Bərdə-Ağdam-Bərdə istiqamətində reyslər fəaliyyət göstərir". Bu sözləri Sia-ya açıqlamasında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəsmisi Günay Əliyeva bildirib.**

Onun sözlərinə görə, reyslər Əhmədbəyli-Şuşa marşrutu üzrə həftədə 4 dəfə, digər istiqamətlər üzrə isə 2 dəfə olmaqla təşkil edilir: "Füzuli Beynəlxalq Hava Limanı-Şuşa avtobus marşrutunun fəaliyyəti təyyarə aviareysləri ilə uzlaşdırılacaq. Bakı-Şuşa-Bakı biletinin bir istiqamətə olan qiyməti 10,4 manat, Bakı-Ağdam-Bakı biletinin bir istiqamətdə qiyməti 9,4 manat, Əhmədbəyli-Şuşa-Əhmədbəyli (express) biletinin bir istiqamətdə qiyməti 7 manat, Bərdə-Ağdam-Bərdə (express) biletinin bir istiqamətdə qiyməti 5 manat, Füzuli BHL-Şuşa (express) biletinin bir istiqamətə qiyməti isə 6 manat təşkil edir.

Bakı-Şuşa-Bakı istiqamətində artıq biletlər fevral ayının 2-nə kimi satılmışdır. Dünən ki, səfərdə Bakı-Şuşa-Bakı üzrə 47, Bakı-Ağdam-Bakı üzrə isə 43 yer dolmuşdu. Avtobuslar konkret marşrut üzrə hərəkət edəcək. İşğaldan azad olunan ərazilərə səyahət etmək istəyənlər biletləri elektron qaydada "yolumuzqarabaga.az" saytından əldə edə bilərlər".

*Banuçiçək*

# Müəllim-şagird münasibətləri




**"Müəllim-şagird münasibətləri təəssüflər olsun ki, son günlər daha da kəskin münasibət alıb. Təbii ki, bu vəziyyətin qarşısını almaq üçün müvafiq qurumlar ciddi tədbirlər görməlidirlər. Mən düşünürəm ki, hər bir məktəbdə və auditoriyalarda xüsusi olaraq kameralar quraşdırılmalıdır". Bu sözləri SİA-ya açıqlamasında təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi deyib.**

Onun sözlərinə görə, hər bir məktəbdə bir saat belə olsa psixoloji dərslər keçilməlidir: "Eyni zamanda psixoloqlarla şagirdlərin görüşü təşkil olunmalı, seminarla keçirilməlidir. Şagirdlərə müəyyən biliklər verilməlidir. Əgər müəllimin psixoloji durumu yerində deyilsə, və yaxud da hər hansı bir situasiya ilə bağlı özünü yaxşı hiss etmirsə, yaxşı olar ki o müəllim dərslərdə iştirak etməsin".

Elçin Əfəndi sözlərinə belə davam edib: "Artıq müəyyən məsələlərlə bağlı müəllimin nüfuzu o qədər aşağı düşüb ki, istənilən halda hər bir hərəkət vətəndaşda da, şagirddə də qıcıq yaradır. Şagird-müəllim münasibətləri əslində valideyn-övlad münasibəti kimi qurulmalıdır. Müəllim şagirdə öz övladı kimi yanaşarsa, şagird də həmçinin müəllimə valideyni kimi münasibət göstərsə bu zaman problemlərin qarşısı bir qədər alına bilər. İndi elə bir dövrdəyik ki, baş verən hər hansı bir situasiya ictimaiyyət tərəfindən anında yayımlanır və cəmiyyət də bunu görür. Ona görə də müəllim də, şagird də bu məsələlərə çox həssaslıqla yanaşmalıdır ki, problemlər daha da böyüməsin".

Ümumiyyətlə, şiddət kim tərəfindən tətbiq edilməsindən asılı olmayaraq qəbuledilməzdir. Biz yalnız müvafiq ünsiyyət vasitələrini tətbiq etməklə məsələni həll edə bilərik. Ani bir məqamda verilən səhv qərar təbii ki, hər iki tərəfə müəyyən mənada mənfi təsir edə bilər".

*Ayşən Vəli*

Təhlil

# Fransa prezidentliyinə namizəddən Azərbaycana qarşı HƏYASIZLIQ

## İlham Əliyev: "Hesab edirəm ki, bu bəyanatları verənlərdə bunu başa düşürlər ki, bu, heç nəyi dəyişməyəcək"

**Fransanın Qarabağa qanunsuz səfər etməsi ilə gündəmə gəlmiş prezidentliyə namizədi Valeri Pekres Azərbaycanla bağlı şikayət edəcəyinə dair həyasızcasına bir bəyanat yayıb. O, Azərbaycan Prezidentinin ”Biz Valeri Pekresin qanunsuz yollarla Qarabağda olmasını bilsəydik, geri qayıdan zaman onu saxlayardıq” sözlərini özünə qarşı ”təhdid” adlandırıb və Fransa hökumətinin bu ”təhdidə” susqun qalmamalı olduğunu bəyan edib.**





Valeri Pekres həmçinin, prezidentliyə namizəd olaraq öhdəliyinin həm də ”Şərq xristianları məsələsi” olduğunu və bu baxımdan da Ermənistanı müdafiənin vacib olduğunu bildirib.Pekresin bu bəyanatının ardınca təmsil etdiyi Respublikaçılar Partiyasının Fransa Senatında, Fransa Milli Assambleyasında, o cümlədən də Avropa Parlementindəki deputatları və digər şəxslər olmaqla ümumilikdə 242 nəfərin imzasıyla Fransa Prezidenti Makrona müraciət ünvanlanıb. Azərbaycanın dünya birliyi tərəfindən tanınan rəsmi sərhədlərini pozaraq qanunsuz yollarla ərazilərimizə səfər etmiş Pekres və eləcə də Fransa Senatının, Milli Assambleyasının və Avropa Parlamentinin onun kimi separatizmə dəstək ifadə etməklə müraciətə imza atan nümayəndələri Qarabağı ”Azərbaycan aid olmayan ərazilər” adlandırmaqla yanaşı, ”erməni xalqına qarşı təcavüz və təxribatlar törədən” Azərbaycanın rəsmi şəkildə üzr istəməsi üçün müvafiq addımların atılması ilə bağlı absurd çağırış ediblər.

### Bu, həyasızlığın son həddi deyilmi?

Bu, təəccüb də doğurmur. Çünki Qarabağda 44 günlük müharibə başa çatsa da, Fransanın qərəzli mövqeyi başa çatmaq bilmir. Və bu dəfə Fransa prezidentliyinə namizəd Valeri Pekres Qarabağa qanunsuz səfər etməsi heç nəyi dəyişməyəcək.Sözügedən məsələ ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibəsində Fransa prezidentliyinə namizədin Xankəndiyə qanunsuz səfərinə münasibət bildirib. Dövlət başçısı bildirib ki, bu bəyanatların səbəbi də aydındır, növbəti prezident seçkilərində erməni təşkilatlarının səsini qazanmaqdır: ”Prezident Makron müharibə zamanı Ermənistana dəstək verən ən qabaqcıl siyasətçi idi və hətta məsələ o yerə çatmışdı ki, Fransa-Azərbaycan əlaqələri də artıq sual altına düşmüşdü. Buna baxmayaraq, bütün müharibə dövründə o, birmənalı şəkildə Ermənistan tərəfini tuturdu. Mən təəccüb edirəm ki, Paşinyan tərəfindən indi nə dərəcədə nankorluq göstərilir, ona əsas rəqib olan xanım Pekres Qarabağa göndərilir və beləliklə, erməni səslərinin qazanılmasında onun daha böyük imkanları yaranır. Yəni məni təəccübləndirən budur. İkincisi, bir daha demək istəyirəm ki, bu, heç nəyi dəyişməyəcək”.

### ”Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər”

Azərbaycan Prezidenti onu da vurğulayıb ki, o ki qaldı qıcıq doğuran məsələlərə, əlbəttə, bu bizi də qıcıqlandırır və dəfələrlə belə qanunsuz səfərlər baş verdikdə rəsmi qaydada Rusiya tərəfinə irad bildirilir: ”Həm müdafiə nazirimiz öz həmkarına məktublar göndərib dəfələrlə, həm sülhməramlı missiya rəhbərinə irad bildirilir və Valeri Pekresin son qanunsuz səfəri ilə bağlı da eyni addımlar atılmışdır. Bizə belə bir cavab verildi ki, biz görməmişik, bilməmişik, diqqətdən kənarda olub, o, hansısa adi bir maşında gəlib və sair. Halbuki, əlbəttə, bu, inandırıcı deyil və mən necə var elə də deməliyəm, müsbəti də, mənfini də. Bu, təşkil edilmiş səfər idi, çünki Valeri Pekres istədiyi müşayiətlə gedə bilməyib, çox məhdud sayda gediblər. Onun yanında Fransanın keçmiş xarici işlər naziri, avrokomissar Barnye, bir deputat olmuşdur. Onlar gizli şəkildə oraya getdilər və qayıtdılar. Qayıdandan sonra artıq xəbər çıxdı, çünki yəqin ehtiyatlanırdılar ki, biz Laçın dəhlizində onları dayandıracağıq. Çünki əgər xəbərimiz olsaydı ki, onlar oradadırlar, biz onları geri buraxmayacaqdıq, birmənalı şəkildə. Laçın dəhlizi bizim nəzarətimiz altındadır”.



### Aydın Mirzəzadə: ”Ermənilər onlara sərf eləməyən zamanda və formada istənilən vaxt dostlarını, müttəfiqlərini aldada, hətta pis vəziyyətdə qoya bilərlər”

Sözügedən mövzu ilə bağlı millət vəkili Aydın Mirzəzadə açıqlamasında bildirib ki, Ermənistan rəhbərliyi və siyasi elitası heç də dost adlandırdığı Fransaya qarşı səmimi deyil. Deputat diqqətə çatdırıb ki, ermənilər onlara sərf eləməyən zamanda və formada istənilən vaxt dostlarını, müttəfiqlərini aldada, hətta pis vəziyyətdə qoya bilərlər: ”Bir tərəfdən Ermənistan rəhbərliyinin indiki prezident Makrona dostluq, qardaşlıq hisslərini görürük, digər tərəfdən isə onun rəqibi üçün piar yaratmağa çalışır. Prezidentliyə namizəd Valeri Pekresin İrəvanda yüksək səviyyədə qarşılanması Paşinyan və onun komandasının Makrona olan əsl münasibətini göstərir. Hesab edirəm ki, bu həmişə belə olacaq və Ermənistanı özünə dost bilənlər bilmədidirlər ki, istənilən vaxt Ermənistan onlara qarşı bu cür xəyanətkarlıq edəcək.Görünən budur ki, V.Pekres qarşıdan gələn prezident seçkilərində Fransadakı erməni lobbisinin dəstəyini qazanmaq üçün bu addımı atıb”.

Xatırladaq ki, Bakı ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olaraq Fransanın daim ədalətli yanaşma ortaya qoymasını tələb edirdi. Lakin bunun əksi baş verirdi. Heç kimə sirr deyil ki, Fransa 44 günlük müharibənin ilk günündən ermənilərin maraqlarından çıxış edib, dünyanın gözü qarşısında işğalçılığa və separatizmə dəstək verirdi. Təəssüf ki, ”demokratiyanın beşiyi” sayılan ölkə və onun bəzi təmsilçiləri indi də ermənipərəst mövqelərindən əl çəkmək fikrində deyillər. O da danılmaz faktordur ki, Fransa siyasətçiləri hər zaman ölkə daxilində və xarici siyasətdə ermənilərdən istifadə ediblər. V.Pekres və prezidentliyə digər namizəd Erik Zimmur da eyni yolu gedir. Bu isə Cənubi Qafqazda revanşizmi gücləndirmək və sülhə qarşı təxribat deməkdir. Pekres, Zimmut və Fransa senatında olan digər ermənipərəstlərin bu addımları münaqişəni yenidən alovlandırmaq məqsədi güdür. Onların revanşizmi və separatçılığı dəstəkləməsi isə ciddi təhlükədir.

Bu ərköyün və dünyada reytinqi ayaqlar altında olan, Fransa tarixində xalq qarşısında legitimliyi ən aşağı həddə sayılan Makron bugünkü Ermənistan torpaqlarının tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu da unutmamalıdır və burnunu bu məsələyə soxmamalıdır.Və 44 günlük Vətən Müharibəsin ilə Ermənistan qoşunları Azərbaycan ərazisindən çıxarılıb, işğala son qoyuldu. Və beləcə, ”Dağlıq Qarabağ münaqişəsi” ifadəsi tarixə qovuşduğu halda bu gün Fransa ”Dağlıq Qarabağ münaqişəsi”ni yenidən gündəmə gətirmək istəyi Ermənistanın sərsəm ritorikasını dəstəkləməkdən başqa bir şey deyil.

### Azərbaycan Prezidenti: ”Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir”

Fransa ”Dağlıq Qarabağ münaqişəsi həll olunmayıb” deyirsə, buyursun, zəhmət deyilsə, rəsmi Bakıya anlatsın ki, problem necə həll olunmalıdır. Azərbaycan Prezidenti İlham Əliyev sözügedən məsələ ilə bağlı deyib: ”Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”. Bəli, 44 yaşlı Emmanuel Makron Fransanın ən ziddiyyətli prezidentlərindən biri, bəlkə də ən birincisidir. Fransız siyasətçilər Makron haqqında belə deyirlər: ”O, hamı ilə dostdur, amma heç kimin dostu deyil”.

Göründüyü kimi, belə qanunsuz səfərlərin həyata keçirilməsi Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış terrorçu rejimin təbliğinə və işğalçılıq siyasətinin təşviqinə xidmət edir. Ekspertlərin sözlərinə görə, səfərin təşkili və Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış terrorçu rejimlə imzalanan ”bəyannamə” Fransanın özünün də qanunvericiliyi ilə ciddi ziddiyyət təşkil edir. Sirr deyil ki, Fransada erməni diasporunun təsiri altında fəaliyyət göstərən bir qrup var. Bu qrup hər vəchlə Azərbaycan ilə Fransa arasında mövcud olan münasibətlərə xələl yetirməyə, ikili əlaqələri pozmağa çalışır. Bir sözlə, Paris iqtisadi maraqlarını heç vaxt ermənilərə görə qurban verməyəcək. Sadəcə olaraq, erməni lobbisinin əlində oyuncağa çevrilən V. Pekres kimilər ölkələrinin praqmatik maraqlarını görməzdən gəlirlər. Bunun zərbəsini isə, ilk növbədə, özləri dadmalı olacaqlar.

**RƏFİQƏ HÜSEYNOVA**

ANALİTİK + AKTUAL

# Üçüncü dünya müharibəsi olacaqmı?

## Yaxud, baş verərsə bəşəriyyəti nə gözləyir?

**Müasir dünyamız müxtəlif siyasi, iqtisadi, bütövlükdə isə geopolitik dalğalarla çalxalanır. Zaman-zaman planetimizin çoxsaylı nöqtələrində dövlət çevrilişləri, etirazlar və silahlı qiyamlar, ayrı-ayrı dövlətlər arasında yaşanan ziddiyyətlər, münaqişələr demək olar ki, səngimir. Bu qarşıdurmaları isə yalnız iki hissəyə bölmək olar - ədalət uğrunda mübarizələrə və ədalətsizliklərə. Misal üçün, 30 ilə yaxın dövr ərzində Qarabağ torpaqları Ermənistanın təcüvüzkar siyasəti nəticəsində işğal altında qalmış Azərbaycan uzun illər bu torpaqlarını sülh yolu ilə, müharibəsiz, qansız-qadasız geri qaytarmağa, ərazi bütövlüyünü bərpa etməyə çoxsaylı cəhdlər göstərdi. Təəssüf ki, BMT daxil, dünyanın bir çox nüfuzlu təşkilatlarının çıxardıqları qətnamələr, sənədlər belə ədalətin bərqərar olmasına cüzi də olsa öz təsirini göstərə bilmədi.**

O cümlədən, indinin özündə də şahidi olduğumuz, qarşılaşdığımız ikili standartlar və bu kimi bənzər yanaşmalar illər uzunu davam etdi və nəticədə son, qəti qərar verildi - Azərbaycan dövləti və xalqı işğala son qoymaq üçün vahid şəkildə birləşdi və torpaqlarını azad etmək üçün silahlı mücadiləyə başladı. 44 gün davam edən Vətən uğrundakı savaşda işğalçı qüvvələr məğlub edildi, kapitulyasiya altı imzalandı. Təbii ki, müharibələr itkisiz olmur və Azərbaycan Ordusunun arsenalında dünyanın ən aparıcı hərbi sənayelərinin istehsalı olan beşinci nəsil silahları, texinki təchizatları sayəsində düşməndən fəqrli olaraq Silahlı Qüvvələrimiz minimal itkilərlə müharibəni qələbə ilə başa çatdırdı. Halbuki, Ermənistan tərəfinin canlı itkiləri qeyri-rəsmi məlumatlara görə on minlik həddi keçdi. Bugünün özündə də azad olunmuş torpaqlarımızda düşmən hərbçilərinin qalıqları tapılaraq aidiyyatı üzrə təhvil verilməkdədir.

Beləliklə, 44 günlük Qarabağ müharibəsi müasir dünyanın hərb tarixinə yeni savaş texnologiyalarının tətbiqini təqdim edti və artıq bundan sonrakı müharibələrin həm də təmazsız müharibə olacağını deyə bilərik. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, müharibə təhlükələri, savaş ehtimalları artıq dünyanın bir çox nöqtələrini bürüməkdədir. Yeni müharibələr isə bəşəriyyəti istər-istəməz təlaşlandırır, qan-qadalar, dinc əhalinin öldürülməsi, kütləvi dağıntılar və s. kimi qara buludlar dünyamızın başı üzərində asılıb-qalıb.

Tarix də göstərir ki, müharibələr yalnız qan-qadalarla bitmir, həm də xəritələrin dəyişdirilməsinin, dünya düzəninin pozulmasına da gətirib çıxarır. Və çox vaxt ədalətsizliklərdən yorulan xalqlar, ölkələr ölümü gözə alaraq savaş meydanlarına atılırlar. Bu amillər, faktorlar isə artıq Üçüncü dünya müharibəsinin qoxusunun gəldiyini hərdən daha açıq şəkildə hiss etdirir. Amma buna baxmayaraq insanlar suallarını edirlər: Üçincü dünya müharibəsi olacaqmı? Yaxud olacaqsa bəşəriyyəti hansı aqibət gözləyir: Biz, bu mənada Birinci və İkinci dünya müharibələrinin baş vermə səbəblərini, nəticələrini araşdıraraq növbəti mümkün ehtimallarımızı hasil edə bilərik.

### Birinci dünya müharibəsinin səbəbləri və nəticələri

Tarixə müraciət edək. Ötən əsrin ikinci onilliyi ərəfəsində müstəmləkəçi ölkələrin inkişafı, almanların güclənməsi və müstəmləkə uğrunda apardığı amansız müharibələr, ilk növbədə, Almaniya-Antanta arasındakı ziddiyyətlərin kəskinləşməsi, dünyanın yenidən bölüşdürülməsi uğrunda Avropa dövlətlərinin iki hərbi-siyasi bloku arasında mübarizə Birinci dünya müharibəsinə gətirib çıxardı. Bu ziddiyyətlərin başlıcası Almaniya ilə Böyük Britaniya arasında idi. Belə ki, alman hərbi-siyasi dairələri Böyük Britaniya və Fransanın hesabına yeni müstəmləkələr zəbt etmək, Fransa və Rusiyanı zəiflətmək, onların müstəmləkələrinin bir hissəsini ələ almaq niyyətində idilər. Almaniyanın müttəfiqi, o zamankı Avstriya-Macarıstan dövləti isə Balkan yarımadasında öz nüfüzunu genişləndirməyə və yeni ərazilər işğal etməyə çalışırdı.

Lakin Böyük Britaniya da öz planlarını icra etmək üçün hadisələri seyr etmirdi. Birləşmiş Krallıq hökuməti müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun müstəmləkələrinin bir hissəsini ələ keçirmək, Osmanlı İmperiyasını bölüşdürmək ümidində idilər. Əlbəttə ki, daim imperiya siyasəti həyata keçirən Fransa hökuməti də buna nail olmaq istəyirdi. Bundan başqa onlar, 1870-1871-ci illərdə Almaniya ilə olan müharibədə itirilmiş Elzas və Lotaringiya vilayətlərini geri almaq, Almaniyanın Reyn vilayətinin bir hissəsini ələ keçirmək istəyirdilər.

Rusiya imperiyası isə çariz siyasəti əsnasında Balkanda, Bosfor və Dardanel boğazlarında öz hökmranlığını yaratmağa, həm də Almaniyanı iqtisadi cəhətdən zəiflətməyə çalışırdı. Və beləliklə, müharibə get-gedə yetişirdi.



Artıq Avstriya-Macarıstan ilə Serbiya arasındakı münaqişə müharibənin başlanması üçün bəhanə oldu. Avstriya-Macarıstan ordusunun baş komandanı, ershersoq Frans-Ferdinand Bosniyadakı manevrlərdə iştirak edirdi. Əslində, Frans-Ferdinand taxt-taca yiyilənməyəcəkdi, çünki o, bir qız uğrunda taxt iddialarından vaz keçmişdi. Yəni onun öldürülməsi müharibəni başlamaq üçün bir bəhanə olmuşdu. İyunun 28-də Serbiyadan gəlmiş terrorçu qrupun üzvü olan Qavrilo Prinsip Avstriya-Macarıstan taxt-tacının vəliəhdini Sarayevoda qətlə yetirdi. Bunun qarşılığında Avstriya-Macarıstan Serbiyaya ultimatum göndərdi və ona qarşı müharibə elan etdi. 1914-cü ilin iyul ayının sonlarında Avstriya-Macarıstan ordusu Serbiya ərazisinə daxil oldu. Belqrad şəhəri bombardman edildi. Rus İmperiyası Serbiyanı müdafiə etmək üçün səfərbərliyə başladığı müddətdə avqustun 1-də Almaniya imperiyası Rusiyaya, avqustun 3-də isə Almaniya Fransaya müharibə elan etdi. Almaniya eyni zamanda Prussiya tərəfindən imzalanmış Belçikanın bitərəfliyi haqqında müqaviləni "ağ kağız" adlandırdı və avqustun 4-də Belçikaya hücum etdi. Belçikanı müdafiə etmək bəhanəsi ilə Böyük Britaniya Almaniyaya müharibə elan etdi. Getdikcə yeni-yeni ölkələr müharibəyə qoşuldular. 1914-cü il avqustun 23-də Yaponiya Almaniyaya qarşı müharibə elan etdi. Lakin o Avropaya qoşun göndərmədi, Yaponiya Almaniyanın Uzaq Şərqdəki torpaqlarını tutmağa və Çini itaət altına almağa çalışırdı.

1914-cü ildə Osmanlı dövləti "Üçlər ittifaqı" tərəfindən müharibəyə qoşuldu. Buna cavab olaraq oktyabrın 2-də Rusiya, 5-də Böyük Britaniya, 6-da isə Fransa Osmanlıya qarşı müharibə elan etdi. Suriya, Fələstin və Qafqazda yeni cəbhələr açıldı. Birinci dünya müharibəsi 1918-ci ildə 11 noyabr Almaniyanın təslim olması ilə sona çatdı. Rusiyada 1917-ci ilin fevral ayında baş vermiş burjua-demokratik inqilabı nəticəsində monarxiya devrildi. Oktyabrda isə bolşeviklər dövlət çevrilişi edərək hakimiyyəti ələ aldılar. 3 mart 1918-ci ildə Brest-Litovskda Almaniya və İttifaq Dövlətləri ilə sülh bağladılar. 1918-ci ilin mayında Rumıniya "İttifaq dövlətləri"lə sülh bağladı. 1918-ci il oktyabrın 30-da Osmanlı, noyabrın 3-də Avstriya-Macarıstan, noyabrın 11-də isə Almaniya təslim oldu. Beləliklə, müharibə İttifaq dövlətlərinin məğlubiyyəti ilə başa çatdı.

*Ardı Səh. 14*

ANALİTİK + AKTUAL

# Üçüncü dünya müharibəsi olacaqmı?

## Yaxud, baş verərsə bəşəriyyəti nə gözləyir?

Əvvəli Səh. 13

Bəs müharibə özündən sonra hansı izləri buraxdı? İlk növbədə, məğlubiyyətlər və inqilablar Rusiya, Osmanlı, Avstriya-Macarıstan imperiyalarının siyasi quruluşlarını dağıtdı, onların dördü də dünyanın siyasi xəritəsindən silindi. ABŞ, İngiltərə və Fransa imperialistləri özlərinin başlıca rəqiblərinin darmadağın edilməsinə nail oldular və dünyanın yenidən bölüşdürülməsinə başladılar. İmperializmin doğurduğu bu müharibə milyonlarla insanları məhv etdi və çox böyük maddi zərər vurdu. Öldürülənlər və yaralardan ölənlər azı 10 milyon, yaralananlar isə 20 milyon nəfərdən çox idi. Bundan əlavə, çox sayda insan aclıq və xəstəlikdən dünyasını dəyişmişdi. 1914-1918-ci illərdə müharibədə vuruşan başlıca dövlətlərin milli sərvətinin orta hesabla üçdə bir hissəsi məhv olmuşdu. Bütöv kəndlər və şəhərlər yer üzündən silindi, çox sayda dəmir yollar, körpülər, fabrik və zavodlar dağıdıldı. Müharibə bir çox Avropa ölkəsinin sənayesinin, kənd təsərrüfatının və maliyyəsinin dağılmasına səbəb oldu. 1772-1913-cü illərdəki müharibələrin hamısının birlikdə vurduğu ziyan 6 milyard dollar (1913-cü ilin qızıl dollar hesabı ilə) təşkil etmişdisə, Birinci Dünya müharibəsi 80 milyard dollar məbləğində ziyan vurmuşdu. Göründüyü kimi, Birinci dünya müharibəsi siyasi maraqlar, istilaçılıq və işğalçılıq faktoruna görə baş verdi, qeyd edilən statiskilar isə onun nəticələrini bu gün də dəhşətli rəqəmlər olaraq təqdim edir.

### İkinci dünya müharibəsi: səbəblər və nəticələr nəyi göstərir?

İkinci dünya müharibəsi isə bəşəriyyətə daha ağır fəlakətlər gətirdi. Almaniyada hakimiyyətə gələn faşizm hərbi-siyasi xuntası artıq dünyanı ələ almaq məqsədini qarşısına məqsəd qoymuşdu. 1939-cu il 1 sentyabrda Almaniya Polşa üzərinə hücuma keçdi. 1939-cu il 1 sentyabrda saat 04:45 radələrində Danziq limanında olan Alman müharibə gəmisi Schleswig-Holstein Polşaya aid Westerplatte adlı gəmiyə atəş açdı. Bu tarix uzun bir müddət - İkinci dünya müharibəsinin rəsmi başlanğıc tarixi olaraq qəbul edildi. Halbuki 04:40 radələrində Alman bombardman təyyarələri, Breslaunun 100 km şərqindəki Wielun qəsəbəsinə hücum etmiş və 1200 insanın həyatına son qoymuşdu. Bundan əvvəl isə bir alman-slovak bölüyü 26 avqust tarixində Jablona keçidini işğal etmişdi. Bölük komandirinə hücum tarixinin təxirə salındığı xəbərini bildirmək unudulmuşdu. Fitnə-fəsad yolu ilə hücuma keçən Almaniya sərhədləri pozaraq Polşa üzərinə 57 diviziya (1,5 milyon adam), 2500 tank, 2000 təyyarə göndərdi. 3 sentyabr tarixində İngiltərə və Fransa Almaniyaya müharibə elan etdilər. İkinci dünya müharibəsi başlandı. Sentyabrın 3-10 arasında Avstraliya, Yeni Zelandiya, Hindistan, Kanada Almaniyaya qarşı müharibəyə qoşuldular. ABŞ özünü bitərəf elan etdi. Yaponiya Avropa müharibəsinə qarışmadığını bildirdi.

İkinci dünya müharibəsi kifayət qədər sərt başladı. Almanlar Qərbi Polşanı viran qoydular. Sazişə uyğun olaraq ruslar Polşanın şərq yarısını işğal etdilər. Ruslar həmçinin 1940-cı ildə Estoniya, Latviya və Litvanı da işğal etdilər, sonrakı ildə onlar sovetləşməyə məruz qaldılar və SSRİ-nin respublikalarının üzvlüyünə daxil oldular. Finlandiya SSRİ-yə qarşı müqavimət göstərdi, SSRİ 1939-1940-cı illərin qışında Finlandiya ilə qısa müharibə apardı. Bu vaxt Qərbdə hamı aldadıcı şəkildə sakit idi. Almaniya Fransaya tərəf qoşunlarını yönəldəndə fransızlar özlərinin Majino xəttinin arxasında yerləşmişdilər. Britaniya az sayda qoşuna malik idi. Almanlar hərəkət etmirdilər. Bu "Qəribə müharibə" adlanırdı. İki böyük Avropa ölkəsi hələ də özlərinin sülh dövründəki baxışlarından əl çəkmirdi. Belə qəribə qış ərzində almanlar öz qüvvələrinin



xüsusi təlim-məşqdən keçirdilər, onların yazdakı niyyətləri tam aydın idi. 1940-cı ilin aprel və may aylarında isə almanlar qəflətən Norveçi, Danimarkanı və Niderlandı işğal etdilər və Belçikaya hücuma başladılar. Almanların zirehli diviziyalarının və adamların başı üzərində uğuldayan bombaların qarşısında heç nə dayana bilmirdi. Polşada istifadə edilsə də, bu taktikalar fransızları və britaniyalıları heyrətə gətirmişdi. 1940-cı ilin mayında Fransa kampaniyasına başlayan Üçüncü Reyx cəmi 6 həftəyə Fransanı işğal etdi. Parisin özü 1940-cı ilin 13 iyununda işğal edildi. Müdafiə yönümlü hərbi nəzəriyyəyə malik olan Fransa ordusu ölkədə əməliyyat aparmağa hazırlaşmamışdı, onun hərbi hava qüvvələri yox idi, hökumət bölünmüşdü. Hökumət məğlubiyyət tərəfdarı və bir qədər alman meylli olan adamlar qrupunun əlinə düşmüşdü və bu adamlar 22 iyunda Fransanı müharibədən çıxardı. Fransızların kiçik qrupu İngiltərəyə qaçıb general de Qollun başçılığı altında Azad Fransa hərəkatını yaratdılar. Fransanın özü yarıya qədər almanlar tərəfindən işğal olunmuşdu, geri qalan yarısı isə Vişi şəhərini öz paytaxtı etmişdi və marşal Filipp Petenin başçılıq etdiyi totalitar rejimin hakimiyyəti altına keçmişdi.

Beləliklə, 1941-ci ilin 22 iyun tarixində Hitler Almaniyası SSRİ-yə qəflətən və elan etmədən hücuma keçdi. Halbuki, o dövrə qədər Ribentrop-Molotov sazişi imzalanmışdı və tərəflər bir-birlərinə hücum etməməyi vəd vermişdilər. Buna baxmayaraq, Almaniya vədi pozdu və bununla da İkinci dünya müharibəsinin əraziləri genişləndi.

Almaniya faşizmi öz yuvasındaca məhv edildikdən sonra, Yaponiya ipmeriyası ABŞ-a, Böyük Britaniyaya və SSRi-yə müharibə elan etdi. Lakin yaponların da ağır məğlubiyyəti son anda kapitulyasiya aktı ilə nəticəsini tapdı. Buna daha bir səbəb ABŞ-ın böyük itkilərə və dağıntılara uğramış Yaponiyanın Hiroşima və Naqasaki şəhərlərinə atom bombası atması oldu.

Beləliklə, rəsmi olaraq 1945-ci ilin 2 sentyabr tarixində başa çatan İkinci dünya müharibəsi müharibələr tarixində ən dəhşətli və dağıdıcı müharibə kimi yazıldı. Onun müxtəlif mərhələlərində hər iki döyüşən tərəfdən eyni zamanda 8 milyondan -12,8 milyona kimi insan, 84 mindən -,163 minə qədər top, 6,5 mindən - 18,3 minə kimi təyyarə iştirak etmişdi. Hərbi əməliyyatların əhatə etdiyi ərazi Birinci dünya müharibəsindəkindən 5,5 dəfə çox idi. Müharibəyə sərf edilən xərclərin miqdarı 4 trilyon ABŞ dolları olmuşdu. Onların 1 trilyon 117 milyardını sırf hərbi xərclər təşkil etmişdir. Müharibə zamanı 60 milyondan çox adam tələf olmuşdu. Ondan 27 milyonu SSRİnin, 13,6 milyonu Almaniyanın, 6 milyonu Polşanın, 5 milyonu Çinin, 2,5 milyonu Yaponiyanın, 1,7 milyonu Yuqoslaviyanın, 600 mini Fransanın, 370 mini İngiltərənin, 300 mini ABŞ-ın və s. payına düşmüdü. İkinci dünya müharibəsinin ən başlıca yekunlarından biri faşizmin ictimai-siyasi sistem kimi yer üzündən silinməsidir. Bu, müharibədə nasist Almaniyanın,faşist İtalyanın və onların müttəfiqlərinin məğlubiyyəti nəticəsində baş vermişdi. Dünyada iki sistem -burjua-demokratik və sosializm sistemləri qalmışdı.

O cümlədən, müharibədən sonra dünyada çox ciddi geosiyasi və ictimai dəyişikliklər baş vermişdi. Avropada və Asiyada bir sıra müstəqil dövlətlər yaradılmış, sərhədlər yenidən qurulmuş, Mərkəzi və Cənub-Şərqi Avropanın bir çox ölkələri faşizmdən azad olduqdan sonra SSRİ-nin təsiri altına düşərək sovet modelli siyasi inkişaf yolunu götürmüşdülər, Asiyada, Afrikada və Latın Amerikası ölkələrində milli-azadlıq hərəkatı güclənmişdi. Müharibə dövlətlərarası münasibətlərdə yeni mütənasiblik yaratmışdı: qalib və məğlub dövlətlər qrupu yaranmış, qalib dövlətlər sırasında ABŞ-ın və SSRİ-nin nüfuzu olmazın dərəcədə artmış, onlar dünyanın super dövlətlərinə çevrilmişdilər, İngiltərə və Fransanın dünyada rolu zəifləmişdi. Müharibədən sonra Almaniya, Vyetnam, Koreya parçalanmışdı.

### Üçuncü dünya müharibəsini arzulamaq dünyanın məhvini istəmək deməkdir!

Bütün bu kimi dəhşətli faktları, ölçüyəgəlməz rəqəmləri nəzərdən keçirdikcə yeni müeharibənin baş verməsini əlbəttə ki, düşüncəsi olan kimsə istəməz. Ancaq müasir dünyamızın Üçüncü dünya müharibəsinin astanasında dayandığını, yaxud bu təhlükənin mövcudluğunu da istisna etmək olmur.

Əslində isə, Üçüncü dünya müharibəsi daha əvvəl də baş verə bilərdi. Ötən əsrin 60-cı illərində kommunizm-kapitalizm arasında gedən amansız savaş, eyni zamanda SSRİ ilə Varşava müqaviləsi ölkələri - ABŞ və onun NATO-dakı müttəfiqləri arasında cərəyan edən soyuq müharibə Kuba böhranını ortaya çıxardı. 1959-cu ilin 1 yanvar tarixində hərbi çevriliş nəticəsində hakimiyyətə yiyələnən Fidel Kastro dəstəkçiləri ölkədə sosializm quruluşunu elan etdilər. Vaxtilə ABŞ-ın ən yaxın müttəfiqləri srasında yer alan Kuba artıq SSRİ-nin qoruması altına keçdi. Bu fakt isə ABŞ-ı narahat edirdi. Nəticə etibarı ilə hadisələr gərginləşdi və barmaqlar nüvə bombalarını partladacaq düymələrə sarı getdi. Yalnız sağlam düşüncə və fəsadların təsəvvürü yeni dünya müharibəsinin baş verməsini əngəllədi və beləliklə təhlükə sovuşdu.

Artıq bu gün belə ehtimallar yenidən gündəmə gəlib. Özü də postsovet məkanında yaşanan olaylar - Ukrayna amili kontekstində təhlükələr yaranmağa başlayıb. Bu gün Ukrayna, Gürcüstan, Moldova kimi ölkələrin əraziləri separatizm toxumlarının cücərməsi nəticəsində işğal altındadır. Ukraynada Krım, Donetsk, Luqansk, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Moldovada Dnestryanı ərazilər bu ölkələrin nəzarətlərindən çıxıb. Yalnız Azərbaycana məxsus Qarabağ regionu işğaldan azad edilib və bu barədə məqalənin əvvəlində yazılıb.

İndi isə Qərb-Rusiya qarşıdurması ən son həddə qədər inkişaf edib və hətta bəzi siyasət adamları, politoloq və ekspertlər, həmçinin konfliktoloqlar Üçüncü dünya müharibəsinin qapının astanasında olduğunu mümkün ehtimalları ilə bəyan edirlər. Söz yox ki, əgər bu müharibə baş verərsə, ya da bu müharibəni arzulamaq, istəmək bilavasitə Yer kürəsinin, bəşəriyyətin məhvi anlamına gəlib-çıxa bilər. İşğalçılıq, yanlış maraqlar, başqa ərazilərə qarşı iddiaların qaldırılması fonundakı məsələlərə son qoylmazsa insan varlığına sivilizasiyanın məhvi kontekstində son qoyulmasının şahidlərinə çevrilə bilərik. Müharibə yalnız və yalnız qan-qada, fəlakət və dəhşət bəxş edir. Yaşadığımız dünyda baş vermiş Birinci və İkinci dünya müharibələri və onların nəticələri hələ də hegemon güclər üçün dərs olmadımı? Axı bütün hallarda, özü də beşinci nəsil silahların mövcud olduğu bir vaxtda yeni dağıdıcı, məhvedici savaş cəbhələrinin açılması dünyanın yaşam səhnəsi üzərinə "The End" pərdəsini çəkə bilər, bununla da milyonlarla illər hesabına yaranan dünyamıza səssiz, qaranlıq və sükut çökər, bəşəriyyət deyilən varlıq tamamilə yox olar.

Bəli, bu gün hər hansı siyasi quruluş öz ölkəsinin maraqları uğrunda müharibəyə əl ata bilər, lakin həmin maraqların yerinə yetirilməsi həqiqətən də nəhəng sual altında qalacaq. Çünki dünya məhv olduqdan sonra bu maraqlar kimsələrə lazım olmayacaq...

**Rövşən RƏSULOV**

# Argentinanın keçmiş səfiri: “Azərbaycanın əsas sərvəti insanlarıdır”

**Argentinanın Azərbaycandakı keçmiş fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Peres Qunella ”Caliber” analitik mərkəzinə müsahibəsində ölkəmiz və xalqımız haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**



***- Cənab səfir, üç il müddətində Azərbaycanda diplomatik xidmətdə olmusunuz. Ölkəmiz haqqında nə deyə bilərsiniz? Ən çox nəyi bəyəndiniz?***

- Mən üç ilə yaxın Argentinanın səfiri kimi Azərbaycanda diplomatik xidmətdə olmuşam və Bakıda böyük təcrübəm var. Vaşinqtondan gəldiyim üçün əvvəlcə yeni reallığa uyğunlaşmağın mənim üçün çətin olacağını düşündüm. Amma həyatın göstərdiyi kimi, əksinə, ilk gündən hər şey çox asan idi. Azərbaycanın hakimiyyət orqanları və sadə vətəndaşları məni çox səmimi qarşıladılar və gözəl və canlı, nisbətən gənc, lakin eyni zamanda uzun və zəngin tarixə və mədəniyyətə malik ölkəni kəşf etməyimə kömək etdilər.

Təəssüf ki, qaldığım müddətin əhəmiyyətli hissəsi pandemiya dövrünə düşsə də, ölkəni çox gəzmək imkanım oldu. Hər bölgədə inanılmaz yerlər, eləcə də incə qastronomiya kəşf etdim. Azərbaycan haqqında ümumi təəssüratım eladır, xüsusən də tanış olduğum insanlar haqqında. Amma mənim heç xoşuma gəlməyən şey Bakıda davamlı küləklər və qışda soyuq hava idi.

***- Sizcə, Azərbaycanda diplomatik xidmətiniz dövründə hansı fəaliyyətlər uğurla həyata keçirilib?***

- Bakıda işlədiyim illər ərzində biz çoxlu tədbirlər keçirmişik. Biz dərhal səfirlik üçün iki prioritet komponent qoyuruq: ikitərəfli ticarəti artırmaq və xalqlarımızın mədəniyyətlərini bir-birinə daha da yaxınlaşdırmaq üçün bütün səyləri göstərmək.

2019-cu ildə yerli özəl sektorun rəhbərlərini ziyarət etmək, onları ölkəmin iqtisadiyyatının dünyaya təqdim etdiyi imkanlarla tanış etmək imkanımız oldu və sonra Argentinadakı həmkarlarımızla uğurla əlaqələr qurduq. Səfirlik fotoqrafiya, rəsm, film, musiqi və rəqslə bağlı müxtəlif mədəni tədbirlər təşkil etmişdir. Xüsusilə, 2019-cu ilin noyabrında Bakıda keçirilən beynəlxalq tanqo festivalını qeyd etmək istərdim. Tədbirdə Buenos-Ayresdə keçirilən Tanqo üzrə Dünya Çempionatının qalibi olmuş rəqqaslar və fantastik bandoneon (tanqo üçün nəzərdə tutulmuş xüsusi musiqi aləti) və gitara dueti çıxış edib.

Çox istedadlı argentinalı sənətçilər gürcü və azərbaycanlı rəqqas və musiqiçilərlə birgə çıxış etdilər. Pandemiyanın başlaması ilə hər şey çox çətinləşdi, lakin biz bütün imkanlardan istifadə etməyə çalışdıq ki, layihələrin icrası üzərində iş dayanmasın.

2020-ci ilin mart ayından və növbəti il ərzində biz Azərbaycan bazarını Argentinanın maraqlı ixracatçılarına tanıtmaq üçün bütün səylərimizi sərf etmişik, həmçinin kənd təsərrüfatı texnikası üzrə virtual işgüzar görüşlər raundunu təşkil etmişik. Səfirlikdə musiqi, foto və rəsm əsərlərinin virtual sərgiləri də keçirilib. Biz yeni reallığa uyğunlaşmaqda kifayət qədər yaradıcı olmuşuq.

***- Görülən işlərdən razısınızmı?***

- Çətin sualdır. Hiss edirəm ki, səfirlik çox böyük iş görüb, lakin eyni zamanda başa düşürəm ki, bu iş yalnız başlanğıc idi, biz argentinalılarla azərbaycanlılar arasında münasibətləri yaxşılaşdırmaqda davam etməliyik. Biz böyük coğrafi məsafədə yerləşən, lakin eyni zamanda bir çox mədəni oxşarlıqlara malik olan ölkələrik. Bizim birlikdə parlaq gələcəyimiz var və buna görə də görülən işlər heç vaxt kifayət etməyəcək!

***- Azərbaycana yenidən səfər etmək istərdinizmi?***

- Əlbəttə! Mən dostlarımı ziyarət etməyə və gözəl Bakıdan həzz almağa gələcəyəm. Pandemiya ilə bağlı vəziyyət düzələn kimi mütləq gələcəm.

***- Bakıda çoxmu dostunuz qalıb?***

- Bəli. Həyat yoldaşım Korina ilə Bakıda çox yaxşı dostluqlar qazanmışıq.

***- Ən çox nə üçün darıxacaqsınız?***

- Bir çox cəhətdən... Əvvəla, dostlarımızdan ötrü, Azərbaycanın əsas sərvəti insanlardır. Amma yeməklər (duşbərə və lülə kababını çox sevirəm), İçərişəhərin çoxlu guşələri, bulvar boyu uzun məsafədə velosiped sürməyim, şəhərin inanılmaz mənzərəsi üçün darıxacağam.

İnanıram ki, Azərbaycanın böyük gələcəyi var. Ölkə və onun əhalisi sürətlə dəyişir, dünya ilə əlaqələrini genişləndirir və düzgün istiqamətdə gedir. Azərbaycan xalqına ən yaxşısını arzulayıram!

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*




# Həyəcan-təşviş pozuntusu insan psixologiyasında NƏLƏRƏ SƏBƏB OLUR?

**“Həyəcan-təşviş pozuntusu və yaxud həyəcan-təşviş oynaması dediyimiz narahatçılıq nevrostanik narahatçılıqlar içərisində günümüzdə daha çox rast gəlinən narahatçılığa çevrilib”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Psixologiya Elmi Tədqiqat İnstitutunun psixoloqu Lalə Əhmədova deyib.**

Psixoloq Lalə Əhmədova qeyd edib ki, qəfil ürək döyüntüsünün səviyyəsinin qalxması, çırpılma, boğulma hissi, nəfəs almaqda çətinlik çəkmə və həmin an ”ölürmüş” kimi düşüncəsi o insana hədsiz böyük bir qorxu yaşadır: ”Nəticə etibarilə həmin insan tez təcili yardıma zəng vurur. Həmin anda yeganə bir düşüncə var, ”yəqin ki ürəyim dayanır”. Çünki, ürək döyüntüsünün səviyyəsi normal səviyyədən çox-çox yuxarı çıxır, həmin anda hipertonik, yəni yüngül qan təzyiqinin oynaması da müşahidə oluna bilər və nəticə etibarilə həmin an o insanın düşüncəsi ”artıq məndə ciddi bir narahatçılıq var, məndə nə isə baş verir, hal hazırda qəlbim dayanacaq” olur. O qorxu 3 dəqiqə ərzində atak şəklində olduğu üçün qorxu bitəndən sonra həmin insanda halsızlıq, yorğunluq başlayır. Bu narahatçılığın bir də təkrar olması qorxusu var”.



Psixoloq vurğulayıb ki, həmin insan ilk olaraq birinci növbədə bu cür narahatçılıqlarda kardioloqa müraciət edirlər: ”Çünki, əlamətlər ürək döyüntüsü olduğu üçün ürəklə əlaqədar bir problem olduqlarını düşünürlər. Lakin ürəkdə, başqa orqanlarda bir narahatçılıq çıxmadığı üçün həkimlər nevrotik, yəni bu narahatçılığın psixoloji olduğunu onlara deyirlər və onlar daha sonra bizə müraciət edirlər. Narahatçılıq əslində nədir? Bunun təməlində nə durur? Əslində hər bir insanda həyəcan təşviş oynaması var və zaman keçdikcə bizim dopamin, hansı ki qorxu nəticəsində aktivləşən hormonumuzda problem yaranır və dopamində dağılma baş verir. Nəticə etibarilə həmin anda o insanda adrenalin, yəni həyəcan hormonu hədsiz ifraz olunmağa başlayır və qorxu, təlaş, ürək döyüntüsü və stress səviyyəsini, yəni kartizonun hədsiz yuxarı fırlaması olur. Bu zaman həmin insan panik-atak yaşayır. Bu, sırf nevrostanik və psixoloji bir narahatçılıqdır. Həmin narahatçılıq düzgün müalicə olunarsa, insan uzun illər bu narahatçılıqdan əziyyət çəkməyə bilər. Ancaq özünü qorumaq, stressdən uzaq durmaq, qəfil ölüm, itki, qəza kimi şeylərdə özünü qoruması mütləqdir”.

***Rüqəyya Orucova***

SƏS
28 yanvar
2022-ci il

# "Barselona" üçün 440 milyonluq sponsor!

İspaniyanın "Barselona" futbol klubu yeni sponsorlarla əməkdaşlıq edəcək. Apasport.az saytının məlumatına görə, La Liqa təmsilçisi yeni mövsümdən iki yeni titul sponsoru ilə əməkdaşlıq edəcək.

Komandanın futbolkasında "Spotify" loqosu əks olunacaq. Bu internet xidmət "Rakuten"i əvəzləyəcək və yeni baş sponsor sayılacaq. 5 mövsümlük müqavilə "Barselona"ya 340 milyon avro qazandıracaq. Futbolkaların qolundakı "Beko" loqosunu "Polkadot" əvəzləyəcək. 5 mövsümlük müqavilə 100 milyon avro gətirəcək.

Qeyd edək ki, "Barselona" "Rakuten"lə 2017-ci, "Beko" ilə 2014-cü ildən əməkdaşlıq edir.

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Ürəyin sağlam olduğunu yoxlamağın ən sadə üsulu



**İspaniyanın La-Korunye şəhərinin universitet hospitalının alimləri ürəyin sağlamlığının sərbəst yoxlamağın sadə üsulunu təklif ediblər. Həkimlər binanın dördüncü mərtəbəsinə çıxmaqla ürəyin vəziyyətinin nə yerdə olduğunu örgənmək imkanı olduğunu bildiriblər. Qeyd olunub ki, dördüncü mərtəbəyə qalxmaq üçün tələb olunan vaxtı ölçmək lazımdır.**

"Əgər bunun üçün sizə bir dəqiqə yarım vaxt lazımdırsa, sağlamlıq səviyyəniz aşağıdır", - həkim Xesus Peteyro qeyd edib. Mütəxəssislər əmindirlər ki, əgər yuxarı qalxma vaxtı bir dəqiqə ətrafındadırsa, insan bundan sonra naxoşluq və ya güclü təngnəfəslik hiss etmirsə, onda narahatlıq üçün səbəb yoxdur.

Həkimlərin sözlərinə görə, bu metod mütəmadi ixtisaslaşmış müayinələrdən keçmək zəruriliyini istisna etmir, lakin ürək-damar sistemi ilə bağlı problemlər zamanla özünü göstərə bilər. (24News.ge)

# DİQQƏT: Yemək üçün ən uyğun saatlar hansılardır?

"Sağlam bir pəhrizdə nə yediyimiz, hansı porsiyada yediyimiz və nə vaxt yediyimiz çox vacibdir. İstifadə etdiyimiz yeməklərin və qəlyanaltıların yemək vaxtı bədən çəkisinin tənzimlənməsinə, metabolik sistemə, piylənmə ilə əlaqəli xəstəliklərin idarə olunmasına və yuxu dövrünə təsir göstərir". Bu sözləri SİA-ya açıqlamasında dietoloq Ceyhunə Yusifova deyib. Onun sözlərinə görə, düzgün yemək vaxtları maddələr mübadiləsinin işləməsi ilə sıx əlaqəli olduğu üçün çəki üzərində də təsirlidir: "Doğru zamanda, müntəzəm yemək maddələr mübadiləsi üçün edə biləcəyiniz ən yaxşı şeylərdən biridir. Aparılan araşdırmalar nəticəsində sübut olunub ki, müəyyən fasilələrlə, hər gün eyni vaxtda yemək arıqlamağı 28% sürətləndirir. Məlumdur ki, düzgün planlaşdırılmış yemək planı ürək-damar xəstəliklərinin müalicəsinə, eləcə də arıqlamağa müsbət töhfə verir".

"Səhər yuxudan oyananda maddələr mübadiləsi normaldan daha sürətli olur. Günün ən vacib yeməyi olaraq bilinən səhər yeməyini oyandıqdan 1-2 saat sonra yemək gün ərzində daha az aclıq hiss etmənizə kömək edir. Bundan əlavə, səhər qısa müddətli aclıqdan sonra ilk yemək hüceyrələrin yenilənməsini sürətləndirir və maddələr mübadiləsi sürətinizi artırmağa kömək edir. Ən dəqiq səhər yeməyi vaxtı oyandıqdan sonra 1 saat ərzindədir".



Ceyhunə Yusifova sözlərinə belə davam edib: "Naharda nəzərə alınması lazım olan əsas şey bədəninizin enerji ehtiyacını doğru zamanda, sağlam şəkildə qarşılamaqdır. Aparılan araşdırmada sübut olunub ki, günorta yeməyini saat 15:00-dan sonra yeyən insanlar o saatdan əvvəl yemək yeyənlərə nisbətən arıqlamaqda çətinlik çəkirlər. Naharınızı 13:00 və 14:00 arasında etmək ən idealdır".

Axşam yeməyi üçün gecə saatlarını seçmək qan şəkərində dalğalanmalara və keyfiyyətsiz yuxuya səbəb olur. Uzun müddətdə bədən yağının artmasına, insulin müqavimətinə, çəki artımına və metabolik pozğunluqlara da səbəb olur. Bu səbəbdən axşam yeməyinizi yatmazdan 4 saat əvvəl yeməyə diqqət edin. Beləliklə axşam yeməyi üçün ideal vaxt 18:00-19:00 arasındadır".

*Ayşən Vəli*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600